www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 iyun 2016-cı il Çərşənbə № 118 (6439) Qiyməti 60 qəpik

## Xəbər

### Zaqatalada xüsusi əməliyyat-vəzifəli şəxslər narkotiklə tutuldu

yazısı səh.2-də

## Gündəm

### Qarabağ danışıqlarında kritik ay başladı - dönüş, yoxsa döyüş...



Prezidentlərin budəfəki görüşünə İrəvan hiyləgər və pozucu bir taktika ilə getmək istəyir; Ermənistanda 4 günlük müharibəyə görə qalmaqallı həbslər; **rus ekspert:** "Ermənilər daha vuruşmaq istəmirlər..."

yazısı səh.11-də

### Azərbaycan əsilli yəhudi milyarderlər Qod Nisanov və Zarah İliyev mediamızda niyə vurulur?

yazısı səh.6-da

### Milli Məclis yay tətilinə getdi-iyunda növbədənkənar sessiya keçiriləcək

yazısı səh.5-də

### Cavid Hüseynova 4 il həbs cəzası verildi

yazısı səh.4-də

### Hakimiyyət AB ilə tərəfdaşlıq sazişi imzalamaq istəyir

yazısı səh.7-də

### Novxanıda hotellərin bir günlük qiyməti 80, Milanda isə 60 manatdır

yazısı səh.15-də

### 14 yaşlı oğlanı oğurlayıb, 20 min manat istəyən şəxs yaxalandı

yazısı səh.14-də

### AXCP-Müsavat danışıqlarında ilk nəticə var

yazısı səh.7-də

### Bakı bulvarında yalnız bileti olanlar gəzə biləcək

yazısı səh.15-də

### Azərbaycan müxalifəti Trampdan qorxmur

yazısı səh.13-də

### Bir Amerika projesi-"Taliban"

yazısı səh.13-də

## Kreml İrəvanı müttəfiqlər siyahısından çıxara bilər - şok gəlişmə

# PUTİNİN MÜŞAVİRİ ERMƏNİSTANI HƏDƏLƏDİ - "BU, RUSİYAYA QARŞI HƏDDİ AŞMAQDIR..."

Erməni hərbi cinayətkara İrəvanda abidə ucaldılması Moskvada qəzəb doğurdu - aprel məğlubiyyətinə görə işğalçı ölkənin öz müttəfiqindən qisas almaq istəyi bumeranq effekti doğurdu; rusiyalı tanınmış ekspertlər od püskürdü, müttəfiqlik münasibətlərini pozmaq, Ermənistana nota vermək çağırışları səsləndi...




yazısı səh.8-də

## Cahangir Hacıyevin ən yaxın adamı həbsdən çıxdı-sırada kim var?

Beynəlxalq Bankın Dubay filialının rəhbəri Adil Hüseynov, Mingəçevir "İzolit"in sədri Mehman Mehdiyev və "Riyad-Farm"ın icraçı direktoru Aqil Quliyev ev dustağı edildi; sabiq bank rəhbərinin bütün əmlakı satışa çıxarılıb

yazısı səh.3-də



İlham İsmayıl

### Sabiq MTN zabitinin 4 iyunla bağlı iddiaları aranı qatdı

yazısı səh.6-da



### Rəsul Quliyevin Rəsulzadə və Elçibəy haqda dediklərinə sərt cavab gəldi

yazısı səh.4-də



*Hafiz Hacıyev:*

### "Gecələr üzümə maska taxıb maşın güdmüşəm"

yazısı səh.6-da



## Yay imtahanlarının vaxtı dəyişdirildi

**Bu il Azərbaycanda keçriləcək "Formula-1" yarışları ilə əlaqədar olaraq ali təhsil müəssisələrində yay imtahanlarının keçirilmə vaxtında dəyişiklik olub. Bu haqda Təhsil Nazirliyindən verilən məlumatda bildirilib.**

Qeyd olunub ki, Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsi tərəfindən yarışlar keçirilən müddətdə müəllim və tələbələrin imtahanlarda iştirak etmələrində hər hansı problemin yaranmaması üçün universitetlərdən yalnız iyunun 15-20 tarixlərinə imtahan təyin olunmaması xahiş olunub.

"Digər günlərdə isə imtahanlar təyin olunduğu qaydada davam etdiriləcək.

Yay imtahan sessiyasına iyunun 1-dən start veriləcək, iyulun 5-də yekun vurulacaq.

Yalnız 5 gün olmayacaq. İmtahanlar olduğu kimi qalır. Sadəcə, 15-20 iyun tarixləri arasında imtahan təyin olunmayacaq".

## Şairin evini qarət edənlər tutuldu


Şəhriyar Del Gerani

**Gənc şair Şəhriyar Del Geraninin yaşadığı mənzildən oğurluq edənlər saxlanılıb. Bu barədə "Qafqazinfo"ya şairin özü məlumat verib. O bildirib ki, polis zəng vuraraq evindən oğurluq edənlərin tapıldığını bildirib.**

Abşeron Rayon Polis İdarəsinin cinayət axtarış şöbəsinin baş əməliyyat müvəkkili Samir Qayıbov da "Qafqazinfo"ya məlumatı təsdiqləyib. Əməliyyatçı bildirib ki, 28 may tarixində həmin oğurluq hadisəsinin üstü açılıb: "May ayının 18-dən 19-na keçən gecə Şəhriyar Del Gerani evində oğurluq hadisəsi baş verməsi ilə bağlı polis idarəsinə ərizə ilə müraciət edib. 28 may tarixində həmin oğurluq hadisəsinin üstü açılıb. Oğurluq edənlər Xırdalan sakinləri 1997-ci il təvəllüdlü Emil Şirinov və 1989-cu il təvəllüdlü Elman Babayev olub.

Daha əvvəl həbsdə olan Anar adlı şəxs onlara bu evi nişan verib. Həmin şəxslər şairin evi ilə yanaşı bir neçə evdən də oğurluq edib".

Əməliyyatçı onu da qeyd edib ki, evdən oğurlanan kompüter də tapılıb və hazırda istintaq materialı kimi saxlanılır.

Xatırladaq ki, bir neçə gün əvvəl gənc şair Şəhriyar Del Geraninin yaşadığı mənzili yarıblar. Pəncərədəki barmaqlıqları qıraraq mənzilə daxil olan oğrular evdən yalnız şairin əsərlərinin arxivi olan noutbuku aparıblar.

## Zaqatalada xüsusi əməliyyat-vəzifəli şəxslər narkotiklə tutuldu

**Zaqatalada xüsusi əməliyyat keçirilib. APA-nın məlumatına görə, Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi tərəfindən həyata keçirilən əməliyyat nəticəsində rayon icra hakimiyyəti başçısının şəhər üzrə nümayəndəsinin müavini Məhəmməd Şərif oğlu Kələşov, Ramin Davud oğlu Şabanov, Şamil Cuma oğlu Şıxəmirov və daha bir neçə vəzifəli şəxs saxlanılıb. Sax-**

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Lavrov Türkiyə ilə barışıq şərtini açıqladı

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov Türkiyə ilə münasibətlərin normallaşdırılmasına hazır olduqlarını bəyan edib.**

Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, bununla belə, nazir ölkəsinin ilk addımı atmayacağını deyib.

"Biz heç zaman Türkiyəyə "zeytun budağı", yaxud başqa budaq uzadacağımızı deməmişik.

Demişik ki, Türkiyə üzr istəməlidir və hərbi cinayət zamanı bizə dəyən zərəri ödəməlidir.Putin də Türkiyənin etməli olduğunu etdikdən sonra münasibətlərin normallaşmasına baxa biləcəyimizi deyib".

Bundan öncə Vladimir Putin Türkiyə ilə münasibətlərin normallaşmasını istədiklərini, lakin Ankaradan konkret addımlar görmədiklərini demişdi.





## Bu gün Bakıda yağış yağacaq

**İyunun 1-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Qafqazinfo"ya daxil olan xəbərə görə, havanın temperaturu Abşeron yarımadasında gecə 16-19, gündüz 22-27, Bakıda gecə 17-19, gündüz 25-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 50-60 faiz təşkil edəcək.

## Samirə Mustafayeva ATV-dən getdi

**"ATV xəbər"in aparıcısı Samirə Mustafayeva telekanaldan ayrılıb. Primetime.az-a xəbər verir ki, aparıcı yayılan xəbəri təsdiqləyərək televiziyadan uzaqlaşdığını və yeni sahədə özünü sınayacağını qeyd edib: "Hər zaman arzusunda olduğum böyük və məsuliyyətli bir işi çiyinlərim üzərinə götürməyə hazırlaşıram. Harada çalışacağımın detallarını hələ ki gizli saxlayıram. İnanıram ki, bu sahədə də uğur mənimlə olacaq".**

Qeyd edək ki, Samirə Mustafayeva "ATV xəbər"in baş redaktoru Vaqif Aydınoğlu ilə evlidir, cütlüyün bir qız övladı var.




## Zakir Həsənov Ərdoğanla birgə hərbi təlimdə

**İzmir şəhərində keçirilən "Efes-2016" beynəlxalq təlimlərinin yekun mərhələsi "Doğanbey" poliqonunda baş tutub. Müdafiə Nazirliyinin saytı bildirir ki, yüksək səviyyəli qonaqlar qismində təlimləri izləmək üçün Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğan poliqona gəlib.**

Sonra Türkiyə Respublikasının Quru Qoşunları komandanı, ordu generalı Salih Zeki Çolak təlim haqqında qısa məlumatla çıxış edib.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov yüksək səviyyəli müşahidəçilərlə birgə təlimi izləyib.

## Polisin saxladığı maşına od vurdu

**Abşeron rayonunda Bakı Şəhər Dövlət Yol Polisinin cərimə meydançasında dayanmış, sahibləri məlum olmayan "Chrysler", "Mercedes", "Mitsubishi" və "Ford" markalı minik avtomobillərinin yanmasının səbəbi məlum olub.**

Anspress xəbər verir ki, Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev bildirdi ki, yanğın heç də təsadüf nəticəsində baş verməyib: "Yanğının baş verməsinə konkret şəxs səbəb olub. Belə ki, polis əməkdaşları sərxoş vəziyyətdə avtomobil idarə edən sürücünü nəqliyyat vasitəsi ilə birgə cərimə meydançasına (dayanacağa) gətiriblər. Dayanacaqda həmin şəxs avtomobildən şəxsi əşyalarını götürmək istədiyini bildirib və polis əməkdaşları da razılıq veriblər. Sərxoş şəxsin maşınında butulkada benzin olub və maşından həmin yanar maddəni götürərək öz avtomobilinin üzərinə tökərək od vurub. Yanğının miqyası getdikcə genişlənib və ərazidəki avtomobillərə də yayılıb. Əraziyə cəlb edilən Fövqəladə Hallar Nazirliyi əməkdaşları tərəfindən yanğının qarşısı alınıb. Hadisəni törədən sürücü tutularaq istintaqa cəlb edilib və barəsində cinayət işi açılıb".

Şöbə rəisi onu da əlavə etdi ki, saxlanılan şəxsin məhkəməsi olacaq və bundan sonra yanan avtomobillərə dəyən zərərin kim tərəfindən ödəniləcəyi müəyyən ediləcək.

Onu da bildirək ki, əgər cərimə meydançasında saxlanılan avtomobillər ehtiyatsızlıq nəticəsində yanarsa və ya yararsız vəziyyət düşərsə, həmin zərər meydançanın təhlükəsizliyini təmin edən müəssisə tərəfindən ödənilir.

Cinayəti törədən şəxsi Abşeron Rayon Polis İdarəsinin əməkdaşları saxlasa da, onun adı hələlik açıqlanmır.

Qeyd edək ki, hadisə ötən gün axşam saatlarında olub. İlkin xəbərdə bildirilirdi ki, Bakı Şəhər Dövlət Yol Polisinin cərimə meydançasında dayanmış, sahibləri məlum olmayan "Chrysler", "Mercedes", "Mitsubishi" markalı minik avtomobilləri naməlum şəraitdə alışaraq yanıb.

Hadisə zamanı "Ford" markalı minik avtomobilinə də qismən zərər dəyib. Meydançadakı digər avtomobillər yanğından mühafizə olunub. Yanğın saat 01:11-də yanğınsöndürənlər tərəfindən söndürülüb.



## Dilqəm Əsgərov: "Hələ ki sağam"

**Xəbər verdiyimiz kimi, bir neçə gün öncə Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri erməni işğalçıları tərəfindən Kəlbəcərdə girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevə baş çəkiblər.**

Girov Dilqəm Əsgərov qardaşı Sahib Musayevə və oğlu Kürdoğlu Əsgərova məktub yollayıb.

K.Əsgərov azvision.az-a açıqlamasında atasının səhhətində ciddi problemlərin olduğunu deyib.

Onun sözlərinə görə, D.Əsgərov məktubunda ürək nahiyəsində ağrıların olduğunu yazıb.

"Atam məktubunda bir sıra məqamlara toxunub. Onları mətbuata açıqlaya bilmərik. Bircə deyə bilərəm ki, onun səhhətində ciddi problem var. Məktubun sonunda isə yazıb ki, "narahat olmayın, hələ ki sağam, oğul!"

## Avtobus qəzasında ağır yaralanan şəxs komadan ayılıb

**Xızıda avtobusun aşması nəticəsində xəsarət alan 15 nəfərin müalicəsi Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanasında davam etdirilir.**

Sumqayıt şəhər Səhiyyə şöbəsinin əməkdaşı Xalidə Quliyeva bildirib ki, hazırda yalnız bir nəfər - Talıbov Vaqif İlyas oğlu reanimasiyadadır. Həmin xəstə artıq komadan ayılıb və vəziyyəti stabil ağırdır. Digər xəstələr isə palatada müalicələrini davam etdirir. Onların bir neçə gündən sonra evə buraxılması nəzərdə tutulur.

Xəsarət alanlardan iki nəfər isə Klinik Tibbi Mərkəzdə müalicə olunur. Mərkəzin baş həkiminin müavini Adil Salahov bildirib ki, xəstələrin müalicəsi davam etdirilir. 2005-ci il təvəllüdlü Nigar Kazımlının vəziyyəti nisbətən yaxşılaşsa da, reanimasiya saxlanılır: "Onların evə buraxılması hələ tezdir və bir müddət stasionar şəraitdə müalicə almalıdırlar". (APA)

## Xalq artistinin xanımı faciəli şəkildə öldü

**Azərbaycanın xalq artisti Valeh Kərimova ağır itki üz verib. "Report" un xəbərinə görə, aktyorun həyat yoldaşı Zöhrə Kərimova bədbəxt hadisə nəticəsində vəfat edib. V.Kərimov "Report"a açıqlamasında məlumatı təsdiqləyib. O bildirib ki, Z.Kərimova mayın 30-da səhər saatlarında küçədə yıxılıb və başı daşa dəyib. Bundan sonra o, dünyasını dəyişib.**

**Həbsdə olan "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Dubay filialının keçmiş rəhbəri Adil Hüseynov, Mingəçevir "İzolit" ASC-nin İdarə Heyətinin sədri Mehman Mehdiyev və "Riyad-Farm"ın icraçı direktoru Aqil Quliyev azadlığa buraxılıb. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, bu barədə Nərimanov Rayon Məhkəməsi qərar qəbul edib. Qərara əsasən, həmin şəxslər barəsində həbs-qətimkan tədbiri ləğv edilib, onların barəsində polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib. Nərimanov Rayon Məhkəməsinin qərarı ilə bir neçə dəfə həmin şəxslər barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb.**

# Cahangir Hacıyevin ən yaxın adamı həbsdən çıxdı

## Beynəlxalq Bankın Dubay filialının rəhbəri Adil Hüseynov, Mingəçevir "İzolit"in sədri Mehman Mehdiyev və "Riyad-Farm"ın icraçı direktoru Aqil Quliyev ev dustağı edildi; sırada kim var?

Qeyd edək ki, A.Hüseynov 2015-ci ilin may ayında saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin (CM) 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi il cinayət işi açılıb. "Riyad-Farm"ın icraçı direktoru A.Quliyev və Mingəçevir "İzolit" ASC-nin İdarə Heyətinin sədri M.Mehdiyev də CM-in 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə ittiham olunurlar. "Riyad-Farm"ın Beynəlxalq Bank qarşısında cəmi 24 milyon dollarlıq kredit öhdəlikləri var. Bu öhdəliklərə şirkətin Almaniyanın "Kommerzbank" bankından Azərbaycan Beynəlxalq Bankının zəmanəti ilə aldığı 14 milyon dollar kredit və Sahibkarlığa Kömək Milli Fondundan alınan 10 milyon dollar kredit daxildir. "Riyad-Farm" MMC bir neçə ay əvvəldən müflis olub, şirkətin 3300-ə yaxın apteki fəaliyyətini dayandırıb. Şirkət dərman bazarındakı mövqelərini itirib.

M.Mehdiyevin isə Beynəlxalq Banka 12 milyon 7 min ABŞ dolları məbləğində kredit borcu qalıb. Təminat kimi o, səhmdar cəmiyyətin binasını, 15 hektar torpaq sahəsi və müəssisənin fəaliyyəti ilə bağlı avadanlıqları girov qoyub. Həbs-qətimkan tədbirinin dəyişdirilməsi onu deməyə əsas verir ki, o da borcunun əhəmiyyətli hissəsini qaytarıb.

Bu iş üzrə ev dustaqlığına buraxılan "açar" fiqurlardan biri şübhəsiz ki, Hacı Məmmədovun bandasının öldürdüyü "Qara polkovnik" ləqəbli Fətullah Hüseynovun oğlu Adil Hüseynovdur. O, Dubay filialının rəhbəri kimi Beynəlxalq Bankın İdarə Heyətin sabiq sədri Cahangir Hacıyevin bu ölkədəki biznesindən sorumlu olub. Onun vəkili və yaxınları həbsin ilk günündən bildirirdilər ki, A.Hüseynov Beynəlxalq Bankın işçisi kimi yalnız rəhbərliyin göstərişlərini yerinə yetirib. Ona deyilən hesablara pul köçürməsinə görə həbs ediblər. Onun vəzifəsi Birləşmiş Ərəb Əmirliklərinin Füceyrə əmirliyində tekstil fabrikinin və poladtökmə zavodunun tikintisinə nəzarət olub. Yada salaq ki, Dubayda Beynəlxalq Bankın pulu hesabına tikilən "İntertextil" fabriki və "İntersteel" zavodudur.



Cahangir Hacıyevin həbsindən sonra Beynəlxalq Bankın girovluğunda olan zavodların satışına dair danışıqlar başlayıb. Zavodlarla maraqlanan, almaq istəyən investorlar tapılıb. Məlumata görə, "İntertekstil" fabrikinin real qiymətindən 30 faiz aşağı qiymətə satın alınması üzrə danışıqlar gedir. "İntersteel" zavodu ilə bağlı konkret razılaşma olub-olmaması bilinmir.

A. Hüseynovun işində daha bir maraqlı detal da var. Bir müddət əvvəl məlum olmuşdu ki, kimlərsə Beynəlxalq Banka A.Hüseynov adından 13 milyon dollar ödəyib. Bu ödəmə banka dəymiş ziyanın ödənilməsinə, yaxud A.Hüseynovun adına rəsmiləşdirilmiş 318 milyon manat kredit borcunun qaytarılmasına yönəlmiş məbləğdir. Ödəmə 9 ay ərzində hissə-hissə həyata keçirilib. Lakin vəkil deyib ki, nə Adil Hüseynov, nə işi aparan müstəntiqlər bu ödəmənin kimlər tərəfindən həyata keçirildiyini bilmir.

"Beynəlxalq Bank işi" üzrə istintaqa Cahangir Hacıyev də daxil olmaqla, 70-ə yaxın iş adamı cəlb olunub. Bu şəxslər Beynəlxalq Banka olan kredit öhdəliklərini ödəyə bilməyən, yaxud ödəməkdən yayınanlardır. Qəribə burasıdır ki, həmin iş adamlarından çox az bir hissəsinin adı ictimaiyyətə bəllidir. Banka borcu səbəbindən həbs olunan təxminən 10 iş adamının kimliyi bilinir. Həmin şəxslərin bir çoxu Cahangir Hacıyevin özünə məxsus çoxlu ASC-lərin direktorlarıdır. Həmin şəxslər ASC-lərin rəhbərləri olmaqla, bir neçə milyonluq kredit müqavilələrinə imza atsalar da, faktiki olaraq həmin kreditlərdən yararlanmayıblar. Əməkhaqqı qarşılığında çalışan bu şəxslər sənədlərə əsasən krediti alıb qaytarmayan şəxslər kimi hələ də "dəmir barmaqlıq" arxasında saxlanılırlar.

"Yeni Müsavat" bir müddət əvvəl də yazmışdı ki, C.Hacıyevin "xəstəliyi ilə əlaqədar" ev dustaqlığına buraxılması gözlənilir. C.Hacıyevin vəkili demişdi ki, sabiq bankir 42 milyon manat mənimsəməkdə ittiham olunur. Bu vəsait bankın səhmlərini almaqdan ötrü istifadə olunub və ondan bu ziyanı ödəməyi tələb ediblər. C.Hacıyev isə Beynəlxalq Bankın 80 milyon manat məbləğində səhmlərini qaytarıb. C.Hacıyevin həbsdən azad edilib-edilməməsi barədə rəsmi bilgi yoxdur. Bilinən həm odur ki, Cahangir Hacıyevin adamlarının adına rəsmiləşdirilmiş "Bakı Quşçuluq", "Şəki bazar", "Şəki ət Kombinatı" və s ASC-lər də bir müddət əvvəl satışa çıxarılıb və bəlkə artıq yeni sahiblər də tapılıb. Bəs o zaman niyə C.Hacıyev hələ də həbsdədir?

**Mövzuya qayıdacağıq.**

**❑ "Yeni Müsavat"**

# Manat iyunda yenidən dəyərdən düşə bilər - səbəblər...




## Əksər ekspertlər devalvasiya təhlükəsinin olduğu qənaətindədir; kəskin məzənnə dəyişikliyi də istisna deyil...

**Manatla bağlı yeni iddialar gündəmdədir. Bildirilir ki, manatın məzənnəsinin möhkəmləndirilməsi və bunun süni şəkildə, inzibati yollarla həyata keçirilməsi növbəti devalvasiyadan qorunma cəhdidir. Həmçinin əksər ekspertlər devalvasiya təhlükəsinin ciddi olduğu qənaətindədirlər. Bildirilir ki, bir neçə aya devalvasiya olacağı ehtimalı güclüdür.**

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, ölkədə dolların kursunun aşağı salınması növbəti devalvasiya öncəsi bir vəziyyət ola bilər: "Ola bilər ki, tezliklə növbəti devalvasiya olacaq. Elə kəskin devalvasiya olmaya da bilər. İndiki məzənnə sünidir, inzibati yolla müəyyən edilən məzənnədir. Yalnız ona görə mümkün olub ki, dövriyyədə milli valyuta azdır. Mərkəzi Bank da məhz əhalidə olan dolları yığmaq üçün bunu edir. Aydındır ki, bu dəqiqə çoxlarına əməliyyat aparmaq, ödəniş etmək üçün manat lazımdır. Buna görə də hamı məcburdur ki, yığdığı dolları milli valyutaya dəyişib də ödənişlərini etsin. Bu da Mərkəzi Banka sərf edir. Aşağı kursu müəyyənləşdirib ki, dolları ucuz qiymətlə əhalidən alsın. Bu da ona görə mümkün olur ki, milli valyuta kütləsini Mərkəzi Bank artırmır, azaldır. Amma əvvəl- axır artırmağa məcbur olacaq. Manat kütləsini artırmağın da yolu bəllidir, banklara milli valyutada borc verməlidir. Mərkəzi Bank banklara kreditlər verəcək, verməyə bilməz. Çünki Mərkəzi Bank banklara kreditlər verməzsə, iqtisadiyyatımızın vəziyyəti daha da pisləşəcək. Kredit veriləndən sonra dolların qiyməti yenə də qalxacaq. O cümlədən biz indi gözləyirik ki, gələn ay ərzində ABŞ-ın Federal Ehtiyat Sistemi dollar kreditləri üzrə uçot dərəcəsini də artıracaq. Həmçinin neftin də qiymətinin yaxın gələcəkdə aşağı düşməsi gözlənilir. Çünki İran, İraq, Səudiyyə Ərəbistanı da neft hasilatlarını artırırlar. Yəni bu şəraitdə milli valyutamızın indiki məzənnədə qalması mümkün deyil. Bir neçə ay ərzində dolların məzənnəsi qalxacaq. Bəlkə gələn ayın axırına kimi qalxacaq. Hətta kəskin artım ola bilər. Əgər Mərkəzi Bank milli valyuta kütləsini xeyli artırmalı olsa, kəskin qalxma olacaq".

Ekspert Vüqar Bayramov isə bildirib ki, məsələ heç də devalvasiya ilə nisbətdə manatın dəyər qazanma faizinin böyük olmaması deyil. Həmçinin bu möhkəmlənmədə bazarın nə qədər rol oynaması ilə bağlıdır...

**Ekspertin sözlərinə görə, Mərkəzi Bankın yaz aylarında hərraclara alıcı kimi qatılması milli valyutanın məzənnəsinə təsir göstərməyə başladı:** "Dörd faizlik marjı qoruyan Mərkəzi Bank valyuta bazarında yenə də aparıcı oyunçu kimi qalmaqdadır. Bu isə o deməkdir ki, manatın məzənnəsinə ən azı valyuta bazarı qədər Mərkəzi Bank təsir göstərir. Hətta dünya bazarında dolların möhkəmlənməsi də belə milli valyutanın kursuna təsirsiz ötüşür. Məzənnəni bazar müəyyənləşdirmədiyi və liberal üzən valyuta rejiminə keçirilmədiyi halda milli valyutanın gələcək məzənnəsi ilə bağlı biznesdə qeyri-müəyyənlik qalacaq. Aydındır ki, Mərkəzi Bank inzibati metodlarla prosesi uzun müddət apara bilməz. İdxalın artması halında yenidən dollara tələb yüksələcək. Digər tərəfdən, "isti pullar" real sektorun canlandırılmasının əsas prinsiplərindən biri olduğu üçün müəyyən müddətdən sonra Mərkəzi Bank manat bazasını genişləndirmək məcburiyyətində qalacaq. Bu isə xarici valyutaya təbii tələbin formalaşdırılması deməkdir".

**Ekspertin sözlərinə görə, bu baxımdan, manatın gələcək taleyini belə ümumiləşdirmək olar:** "Mövcud iqtisadi qanunlarla milli valyuta uzun müddət möhkəmlənə bilməz. Mərkəzi Bank inzibati metodlardan yalnız qısamüddətli dövrdə faydalana bilər. Real sektorun canlanması, alıcılıq qabiliyyətinin yüksəlməsi fonunda idxalın genişləndirilməsi hesabına xarici valyutaya tələb yüksələ bilər. Enerji məhsulları ümumi ixracatımızın 85 faizini formalaşdırdığı üçün manatın gələcək məzənnəsi daha çox neftin dünya bazar qiymətini necə dəyişməsindən asılı olacaq. Manat üçün bədbin proqnoz neftin bir barelinin qiymətinin 40 dollardan aşağı olması, orta proqnoz isə 60 dollar olmasıdır. 80 dollardan yüksək satıldığı halda neft manat üçün nikbin mənzərə formalaşdıra bilər. Neftin qiyməti ilə bağlı proqnoz vermək mümkün olmasa da əgər xarici müdaxilələr olmazsa güman olunur ki, qiyməti 50 dollar ətrafında stabilləşə bilər. Apardığımız müzakirələr və görüşlər ondan xəbər verir ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı yeni yol xəritəsi hazır olduqdan sonra manat bazasında artım müşahidə ediləcək. Manat bazasının genişləndirilməsi real sektorun inkişaf baxımından vacib olmaqla yanaşı, xarici valyutalara da tələbi artıracaq və yenidən dolların məzənnəsi yüksələcək. FES iyunda uçot stavkasını artırarsa, manata psixoloji təzyiq formalaşacaq və bu zaman inzibati metodlar zəifləyəcəyi halda dollar ölkəmizdə yenidən dəyər qazanmağa başlaya bilər. Nəhayət, Mərkəzi Bank gec-tez liberal üzən məzənnə siyasətinə keçəcək və bu halda artıq baş bank deyil, valyuta bazarı kursun müəyyənləşdirilməsində aparıcı olacaq".

**❑ Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 118 (6439) 1 iyun 2016

# Cavid Hüseynova hökm oxundu - 4 il



**Mayın 31-də Səbayel Rayon Məhkəməsində ann.tv saytının əməkdaşı Rasim Əliyevin döyülərək öldürülməsi ilə bağlı həbs edilən “Qəbələ” klubunun sabiq kapitanı Cavid Hüseynovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Musavat.com-un məhkəmə prosesində iştirak edən əməkdaşı xəbər verir ki, Cavid Hüseynova hökm oxunub. Məhkəmənin qərarı ilə o, 4 il azdlıqdan məhrum edilib.**

Xatırladaq ki, prokuror futbolçuya 4 il iş istəmişdi.

Qeyd edək ki, Cavid Hüseynovun bibisi oğlu Elşən İsmayılovun təşkilatçılığı ilə ağır cinayətin hazırlanmasını bilərək bu barədə xəbər verməməsi, cinayətin törədilməsindən sonra isə qabaqcadan vəd etmədən onun gizlədilməsinə yönələn hərəkətlərə yol verməsində şübhələr olduğundan ona Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrində nəzərdə tutulan ittiham elan olunmuş və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilmişdi. C.Hüseynov ötən il, avqustun 12-də həbs edilmişdi.

Rasim Əliyevi öldürməkdə təqsirləndirilən şəxslər Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayevə isə aprel ayının 1-də hökm oxunub.

Məhkəmənin hökmü ilə təqsirləndirilən E.İsmayılov 13 il, C.Məmmədov 11 il, A.Əliyev 12,5 il, K.Mədətov 9 il və S.Mustafayev 9 il müddətinə azadlıqdan məhrum ediliblər.

Məlumat üçün onu da qeyd edək ki, Bakı şəhər sakini, ann.tv-nin əməkdaşı Əliyev Rasim Məmmədəli oğlu avqustun 8-də paytaxtın Bayıl qəsəbəsi ərazisində bir qrup şəxs tərəfindən döyülüb. Çoxsaylı bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilən R.Əliyev avqustun 9-da orada vəfat edib.

# Atası dövlət məmuru olan gənc “avtoş”dan nə xəbər var?

## 20 sutka inzibati cəza alan gənc tələbə bir həftədən sonra azadlığa çıxır; **Hikmət Hacıyev:** “Bir şəxs yol hərəkət qaydalarını pozursa...”



**Mayın 19-da axşam saatlarında Bakı küçələrində “KIA” markalı avtomobillə “avtoş”luq edən və nəticədə 20-yə yaxın polisin güclə zərərsizləşdirdikləri 23 yaşlı tələbə Nicat Abdullayev gündəmdən düşmür. Hər keçən gün onun barəsindəki iddiaların sayı artmaqdadır.**

Mayın 20-də Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 20 sutka inzibati həbs cəzası alan N. Abdullayevin bu qədər də gündəmdə qalmasına əsas səbəb onun məmur oğlu olması ilə bağlı gəzən söz-söhbətlərdir. Onun Xarici İşlər Nazirliyinin Turizm şöbəsinin rəisi Nurpaşa Abdullayevin oğlu olduğu deyilir. Maraqlıdır ki, nazirlik indiyə qədər səslənən ittihamlarla bağlı bir açıqlama belə verməyib. Oğlunun qanun pozuntusu ilə gündəmə gələn atanın 3-cü mikrorayon bazarının sahiblərindən biri olduğu da üzə çıxıb. Bu isə onun vəzifəsindən uzaqlaşdırılacağı şayiələrini gündəmə gətirib.

**XİN-in bu məsələdəki susqunluğuna son qoymaq üçün qurumun mətbuat xidməti ilə əlaqə saxladıq. Mətbuat katibi Hikmət Hacıyev ittihamlara belə cavab verdi:** “Bizdə elə bir məlumat yoxdur. Bununla əlaqədar Dövlət Yol Polisinə müraciət etməyinizi xahiş edirəm. Hər bir şəxs yol hərəkət qaydalarını pozursa, onun bununla bağlı məsuliyyəti var. Bu barədə Dövlət Yol Polisi də açıqlama verib”.

Qeyd edək ki, gənc “avtoş”un bu ilk həbsi deyil. Ərköyün böyüdüldüyü deyilən Abdullayev indiyə qədər üç dəfə məhkəməyə cəlb olunub.

❑ **Cavanşir ABBASLI**

# Rəsul Quliyevin Rəsulzadə və Elçibəy haqda dediklərinə sərt cavab gəldi



**Eks-spiker Rəsul Quliyev Məhəmməd Əmin Rəsulzadə və Əbülfəz Elçibəylə bağlı yeni iddialar ortaya qoyub. Teleqraf.com xəbər verir ki, bu barədə eks-spiker sosial şəbəkələrdə fikrini ifadə edib. Rəsul Quliyev yeni iddialarını 28 May Respublika Günündə açıqlayıb. O deyib ki, Azərbaycanın birinci dəfə müstəqillik qazanmasının 98-ci ildönümüdür:**

“Bu il həmçinin ikinci dəfə müstəqilliyin qazanılmasının 25-ci ildönümü olacaq. Hər iki halda müstəqilliklər rus imperiyasının dağılması nəticəsində baş tutub. Nə birinci müstəqilliyin banisi M.Ə.Rəsulzadədir *(ümumiyyətlə, müstəqillik aktı qəbul ediləndə Rəsulzadə Tiflisdə olmayıb, müstəqillik deklarasiyasının yazılmasında iştirak etməyib və müstəqillik elan ediləndən sonra bu işin baş verdiyindən xəbər tutub. O da təbii idi, çünki o dövrdə telefon, teleqrafdan ancaq məhdud sayda insanlar istifadə edə bilərdi və Rəsulzadəyə Tiflisdə səfirliyi olan türklər bu işin baş tutduğunu dedilər)*, nə də 2-ci müstəqilliyin banisi Əbülfəz Elçibəy. Çünki müstəqillik veriləndə Mütəllibov hakimiyyətdə idi və Xalq Cəbhəsi həmin 1991-ci ildə nə ”Sovetlərin tərkibində qalmaq istəyirik",- referendumunun, nə də Mütəllibovun saxta seçilməsinin qarşısını almaq üçün qorxaq bir addım da ata bilməmişdi. Müstəqilliyin alınmasında 20 Yanvar 1990-cı il şəhidlərinin rolu istənilən siyasi qurumdan yuxarı idi. Müstəqilliyin verilməsi və ya alınması əsas məsələ deyildi. 1-ci müstəqillikdə biz 28 min kvadrat kilometr ərazilərimizi, ən qədim şəhərlərimizdən biri olan İrəvanı ermənilərə bəxşiş kimi verdik. Ruslanın qanlı ordusunu bir güllə atmadan belə *(10 minlik rus ordusunun qarşısına 40 minlik ordu qoymaq mümkün idi)* ölkəmizi yenidən işğal etməyə imkan verdik. 2-ci müstəqillikdən sonra əlavə 20 min kvadrat kilometri ermənilərə verdik".

R.Quliyevin dedikləri Əbülfəz Elçibəy tərəfdarı olan bəzi hərəkatçılar tərəfindən narahatlıqla və narazılıqla qarşılanıb.



**Mirmahmud Mirəlioğlu:**
“Bu iki şəxsiyyət barədə danışmaq hər adamın, hər kişinin işi deyil”



**Mehriban Vəzir:**
“Böyük-böyük danışan adamlara demək lazımdır ki, milli-azadlıq hərəkatı vaxtı harada idin?”

**KXCP sədri Mirmahmud Mirəlioğlu musavat.com-a bildirib ki, R.Quliyevin bu fikri tənqidə belə layiq deyil:** “Həm də Azərbaycanla Amerika arasında saat fərqi var. Nə o, nə də müxbirlər bunu nəzərə almırlar. Ona görə də bu məsələlərdə saat vaxtı qarışdığı kimi fikirlər də çox zaman qarışır. Rəsul bəy kifayət qədər təcrübəsi olan adamdır. Amma Rəsulzadə və Elçibəy haqqında danışmaq hər adamın, hər kişinin işi deyil. Bir az ehtiyatlı olmaq lazımdır. Bir az tarixə baxmaq lazımdır. Xüsusilə də nəzərə almaq lazımdır ki, onun haqqında danışdığı böyük adamlar artıq bu dünyada deyil. Bunlar olanda insanlar məsuliyyət hissini itirmirlər. Məncə, Rəsul bəydən müsahibə alanlar onun əhval-ruhiyyəsini də nəzərə almalıdırlar, təkcə məsələyə münasibətini yox. Bu məsələlərdə də bizim hamımız ehtiyatlı olmalıyıq. Böyük adamlar haqqında danışanda böyük səhvlərə yol verməməliyik. Tarixi, şəraiti və şərtləri heç kəs unutmamalıdır. Onda Rəsul bəyin özünü daha çox qınamaq olacaq ki, o, Bakını tərk edəndə biz də onun haqqında deyirdik ki, o, qayıtmaq üçün gedib. O isə hamını səsləmişdi ki, Heydər Əliyevin ətrafında birləşin. Və yəqin 1993-cü ildə itirilmiş 5-6 rayonu yadından çıxarmışdı”.

**Yazıçı-publisist Mehriban Vəzir də bu mövzuda musavat.com-a danışıb. Bildirib ki, R.Quliyevin dedikləri əsassız, elmsiz, imansız bir ifadədir:** “Məsələ ondadır ki, bütün dünya tərəfindən təsbit olunmuş bir məsələ var. Cümhuriyyətçilər 1918-ci ildə respublikanı qurdular və onun lideri qeydsiz-şərtsiz olaraq Rəsulzadədir. Bu barədə kiminləsə mübahisə etmək, kiminsə cəfəng fikirlərinə diqqəti cəlb etmək üçün boş-boş danışıqlarına reaksiya vermək lazım deyil. Elm də, ictimai fikir də, dünyanın münasibəti də artıq bu məsələyə möhür vurub. O ki qaldı ikinci məsələyə, onun belə bir fikrini oxudum ki, Azərbaycanda milli-azadlıq hərəkatı olmadı, o vaxt da imperiya çökdü, bu vaxt da. Bu hadisələr artıq qiymətləndirilib. Azərbaycanda milli-azadlıq hərəkatında iştirak etmiş yüz minlərlə insan şahiddirlər və bu prosesin, hərəkatın iştirakçılarıdırlar. Həmin səngər, həmin cəbhə o zaman milli-azadlıq hərəkatı olduğunu deyir. Çünki gözü ilə görüb, iştirak edib, orada olub, meydanda dayanıb. Başqa bir səngər var Azərbaycanda. Onlar milli-azadlıq hərəkatında iştirak etməyiblər və imkanları olanda onunla düşmənçilik ediblər. Bunlar inkar etmək zorundadırlar, bunlar məcburdurlar. Çünki iştirakçısı olmadıqları bir prosesi təbii ki, inkar edəcəklər. Çünki bu gün demokratiyadan böyük-böyük danışan adamlara demək lazımdır ki, milli-azadlıq hərəkatı olanda harada idin? Niyə o zaman meydanda yox idin? Deməli, onlara nə qalır - ancaq inkar etmək. Rəsulzadə və Elçibəy haqda o iddiaya düşmək Günəşi danmaq kimi bir işdir”.

**M.Vəzir deyib ki, hər kəs də dilinin altında yatır:** “İnsanın şəxsiyyəti, həyat fəaliyyəti onun dilinin altında yatır. Rəsul Quliyev kimilər bu cür fikirləri deməklə bir daha isbat edirlər ki, milli-azadlıq hərəkatında iştirak etməyiblər. Azərbaycanın müstəqilliyinə heç bir aidiyyətləri yoxdur”.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 118 (6439) 1 iyun 2016

**Mayın 31-də Milli Məclisin 2016-cı ildə yaz sessiyasının son iclası spiker Oqtay Əsədovun sədrliyi ilə keçirildi. İclasın özəlliyi o idi ki, toplantıda bəzi hökumət nümayəndələri ilə yanaşı, bir qrup azyaşlı uşaq da iştirak edirdi. Spiker iclasa qatılan uşaqların simasında 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə bütün dünya uşaqlarını təbrik etdi.**



# Milli Məclisin yaz sessiyası bitdi

## 76 nəfər deputatın müraciəti ilə iyun ayında növbədənkənar sessiya keçiriləcək

İqtisadi siyasət komitəsinin sədri **Ziyad Səmədzadə** "2015-ci dövlət büdcəsinin icrası haqqında" Qanun layihəsi barədə məlumat verdi. Onun dediyinə görə, 2015-ci ildə dövlət büdcəsinin gəlirləri və proqnozlar Gömrük Komitəsi və Vergilər Nazirliyinin daxilolmaları hesabına yüksək səviyyədə icra olunub. Z.Səmədzadə bildirdi ki, 2015-ci ildə dövlət büdcəsinin ümumi həcmi 17,8 milyard manat təşkil edib: "Bu vəsait məlum səbəblərdən nəzərdə tutulduğundan az olsa da, müvafiq xərclərin ayrılmasına mane olmayıb. Bu vəsait 2003-2006-cı illərdəki ümumi xərclərə bərabərdir". Z.Səmədzadə qeyd etdi ki, əvvəlki illərdən fərqli olaraq 2015-ci ildə Neft Fondundan büdcəyə daha az, cəmi 8 milyard vəsait yönəldilib. 2015-ci ildə təkcə aqrar sektora 2,5 milyard vəsait ayrılıb ki, bu da 2005-ci il dövlət büdcəsindən 500 milyon manat çoxdur. Komitə rəhbəri dedi ki, ölkədə 5 şəhər və rayon büdcədən əlavə vəsait almadan fəaliyyət göstərir: "Digər rayonların dotasiyasız işləməsi üçün potensial böyükdür. Gələcəkdə Gəncə, Qəbələ və İsmayıllı da dotasiya almayan şəhər və rayonlar sırasına düşə bilər".

"2015-ci il dövlət büdcəsi 84,3 faiz icra olunub". Bu sözləri isə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov parlamentdəki çıxışı zamanı söylədi. "2015-ci il dövlət büdcəsinin icrası haqqında" Qanun layihəsinin müzakirəsi zamanı çıxış edən qurumun sədri büdcənin icrası ilə bağlı müsbət rəyini açıqladı.

**Müzakirələr zamanı çıxış edən deputat Zahid Oruc "Azərenerji"nin 1 milyard manat borclu olduğunu xüsusi vurğuladı, özəlləşdirmə zərurətindən bəhs etdi. Deputat əlavə etdi ki, SOCAR Gürcüstanın yaşayış məntəqələrini aktiv şəkildə qazla təchiz etsə də, Azərbaycanın bəzi kəndləri hələ də qazsızdır:** "Elə kəndlərimiz var ki, 90% qazlaşdırılıb, işlər yarımçıq saxlanılıb. Bu işləri yarımçıq saxlamaq olmaz". **Z.Oruc maliyyə naziri Samir Şərifovun da iştirak etdiyi iclasda onun devalvasiya zamanı etdiyi xəbərdarlığı xatırlatdı:** "Maliyyə naziri devalvasiya baş verən zaman ictimaiyyətə müraciət etdi və dedi ki, pullar evdə saxlanılmasın, əks halda, oğurlanacaq. Elə də oldu. Son günlər sosialyönümlü oğruların sayı artıb. Oğrular az qala parlament üzvlərinin də evinə girir. Ehtiyatlı olun!" Büdcə vəsaitlərinin mənimsənilməsinə toxunan Z. Oruc qeyd etdi ki, bu istiqamətdə mübarizəyə kompleks yanaşmaq lazımdır: "İdarəetmədə və strukturda dəyişikliklər olmalıdır. Bizim Satınalmalar üzrə Dövlət Agentliyi adlanan qurumumuz var. Onun harada yerləşdiyini bilən varmı?" Deputat ölkədən çıxarılan maliyyə resurslarından da danışdı. Azərbaycandan və Türkiyədən Gürcüstana maliyyə axınının artdığını söylədi, hökuməti müvafiq addımlar atmağa çağırdı.

**Deputat Əli Məsimli dedi ki, əgər biz böhrandan tez çıxmaq istəyiriksə, onda kompleks tədbirlər həyata keçirməli, büdcənin də strukturunda təcili islahatlar aparmalıyıq:** "Ona görə də biz 14 maddədən ibarət kompleks tədbirlər planı hazırlayıb, müvafiq qurumlara göndərmişik və bir aydır həmin qurumlardan cavab gözləyirik. Təkliflərin nəzərə alınması və tədbirlərin həyata keçirilməsi vəziyyətin yaxşılığa doğru dəyişməsinə imkan yaradar".

**Deputat bank soyğunçuluğunu kəskin tənqid etdi:** "Bəzi banklar artıq insanların vəsaitlərini ələ keçirəndən sonra daşınmaz əmlaklarını, maaşlarını, indi isə həmin insanlara qarantiya verənləri hədəfə alıb, onlarla bağlı məhkəmə iddiaları qaldırıb. Bu, nə qanuna, nə insanlığa uyğundur. Bu, bankçılıq yox, soyğunçuluqdur. Ona görə də aidiyyəti qurumlar bu cür naqisliklərin aradan qaldırılması üçün ciddi tədbirlər görməlidir".

**Deputat Elmira Axundova** xaricdən qayıdan diplomatların pensiya probleminin olduğunu söylədi. Onun sözlərinə görə, bu yaxınlarda ölkəyə qayıtmış keçmiş səfir pensiyası ilə maraqlananda məlum olub ki, o, cəmi 300 manat pensiya alacaq.

**Deputat Fazil Mustafa indiki dövrdə neftdən büdcəyə transfertlərin azalması şəraitində büdcənin balansının qorunub-saxlanmasını vacib saydı. Əlavə etdi ki, bəzi məsələlərə xüsusi diqqət yetirmək lazımdır. Deputat əhalinin aylıq gəlirinin 365 manat olduğu barədə statistik göstərici ilə arxayınlaşmağı doğru saymadı:** "İcbari tibbi sığortanın tətbiq edilmədiyi, bu qədər kredit borcları olan ölkədə əhalinin aylıq gəlirinin 365 manat olduğunu demək düzgün deyil. Tibbi sığorta tətbiq olunmadı. Biz dedik heç olmasa müalicə üçün fond yaradılsın, insanlar elementar xəstəliklərdən dünyasını dəyişməsin".

**F.Mustafa dedi ki, xeyli müəssisələrin qapıları bağlanıb:** "Hətta biz dondurma istehsal edib müştəriyə təqdim edə bilmiriksə və alıcı Rusiya istehsalı olan dondurmaya üstünlük verirsə, bu vəziyyət barədə ciddi düşünməliyik. Ölkədə normal bir basketbol meydançası yoxdur, həndbolumuz yoxdur, yaşıl örtüklü futbol meydançası yoxdur, uşaqlara baxırsan, 1,65-1,70 sm-dən ucaboy uşaq tapa bilmirsən. Sanki bu uşaqlar bir dəfə idmanla məşğul olmayıb, belləri bükülü vəziyyətdə dayanırlar. Bu uşaqlar bizim gələcəyimizdir". F.Mustafa əlavə etdi ki, ölkədə idman sahəsinə kifayət qədər vəsait ayrılır, idman kompleksləri tikilir, amma bu sahədə olan problemləri də həll etmək lazımdır.

**Turizmin vəziyyətindən bəhs edən Qənirə Paşayeva dedi ki, biz qardaş Türkiyədən Azərbaycana gələnlərin hamısına hava limanında viza veririk:** "Ancaq qonşu ölkələr bir-birinə daha ucuz səyahət imkanı əldə edirlər. Gəlirlər Gürcüstana, vizasız keçirlər, amma Azərbaycanla sərhəddə onlara deyilir ki, biz sizə burada viza verə bilmərik. Yaxşı olardı ki, vizanın verilişini də sərhəddə reallaşdıraq, turistlər geri qayıtmasın".

Q.Paşayeva Almaniya Bundestaqının 2 iyunda qondarma "erməni soyqırımı" ilə bağlı qanun layihəsini müzakirəyə çıxartmağa hazırlaşdırğını dedi. Təklif etdi ki, parlamentlərarası dostluq qrupu səviyyəsində Azərbaycanın bu məsələyə etiraz bildirməsi vacibdir.

**Deputat Tahir Kərimli** siyasi partiyalara ayrılan vəsaitlə bağlı məsələlərin konkretləşdirilməməsindən narazılığını bildirdi. Ağsu və İsmayıllı rayonlarının problemlərindən danışdı. Dedi ki, Gəncə-Qazax zonasında adambaşına 117 manat xərc çəkildiyi halda, onun seçildiyi dairədə 19 manat ayrılır. "Yaxud məktəb tikintisi ilə bağlı ciddi problemlər var. Gözümlə gedib görmüşəm, məktəb mal tövləsidir, içində ilanlar var" deyə, deputat narazılığını bildirdi.

**Deputat Əflatun Amaşov hökumət üzvlərini mediaya dəstəyi artırmağa çağırdı. O, hərbi sahədə olduğu kimi, informasiya müharibəsində də düşməndən güclü olmağımızı zəruri saydı:** "Təbii ki, Qarabağı ordumuz azad edəcək. Ancaq paralel olaraq informasiya müharibəsində də mövqelərimizi gücləndirməliyik. Söhbət təkcə Ermənistanla müharibədən getmir. Biz informasiya sahəsində tam şəkildə qalib olsaq, media vasitəsilə ciddi təsir göstərib, BMT qətnamələrinin də icrasına nail ola bilərik. İnformasiya sahəsində qalib olmaq üçün mediaya dəstəyin artırılması vacibdir".

**Milli Məclisin plenar iclasında 2015-ci il dövlət büdcəsinin icrası haqqında" Qanun layihəsinin müzakirəsi başa çatandan sonra maliyyə naziri Samir Şərifov deputatların qaldırdığı bəzi məsələlərə münasibət bildirib.**

Diplomatların pensiya problemi ilə bağlı tənqidi fikirlərə cavabında nazir deyib ki, artıq bununla bağlı müvafiq qanun layihəsi hazırlanır və tezliklə layihə Milli Məclisə göndəriləcək. Həmin layihəyə görə, hər kəs qazandığı vəsaitə uyğun olaraq pensiya alacaq. S.Şərifov dedi ki, Maliyyə Nazirliyi tərəfindən Nazirlər Kabinetinə müvafiq təkliflər göndərilib: "Əfsus ki, indiyə qədər Nazirlər Kabineti bu məsələyə münasibət bildirməyib".

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna dəyişiklik edilməsi ilə bağlı layihəni isə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə təqdim etdi. Dəyişikliyə əsasən, xarici ölkədə təhsil alan Azərbaycan vətəndaşlarının hərbi çağırışdan möhlət hüququ ilə bağlı məhdudiyyət aradan qaldırılır. Qanunun 21-ci maddəsinə *(Təhsili davam etdirmək üçün çağırışa möhlət verilməsi)* dəyişiklik edilir. Maddənin 1.5-ci hissəsinə edilən dəyişikliyə əsasən, "xarici ölkələrdə əyani təhsilalma formasında təhsil alanlara ali təhsil pilləsində (bakalavriat), tibb təhsili üçün ali baza tibb təhsili və rezidenturada (internaturada) təhsil alanlara müvafiq təhsilini bitirənədək" möhlət hüququ veriləcək. Bu hissənin hazırda qüvvədə olan variantı isə belədir: "Xarici ölkələrin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş təhsil müəssisələrində əyani təhsilalma formasında təhsil alanlara ali təhsil pilləsində (bakalavriat), tibb təhsili üçün ali baza tibb təhsili və rezidenturada (internaturada) təhsil alanlara müvafiq təhsilini bitirənədək".

Bundan sonra xarici ölkə təhsil müəssisələrində təhsil alanlar üçün hərbi çağırışdan möhlət hüququnun əldə edilməsi üçün müvafiq icra hakimiyyəti orqanı *(Təhsil Nazirliyi)* tərəfindən tərtib olunmuş xarici ölkələrin təhsil müəssisələrinin siyahısına ehtiyac qalmır.

Layihə səsə qoyularaq qəbul olundu.

"Dövlət qulluğu haqqında" Qanuna dəyişikliklərin edilməsi barədə layihə də ciddi müzakirələrə səbəb oldu. Hüquq siyasəti komitəsinin sədri Əli Hüseynlinin təqdimatından sonra söz alan deputatlar dövlət qulluğuna qəbulla bağlı problemlərdən bəhs etdilər. Deputat Fazil Mustafa dedi ki, bu gün yüzlərlə dövlət qulluğuna uğurla imtahan vermiş gənclərimiz var ki, onlar işsiz qalıb. Onun sözlərinə görə, dövlət qulluğuna imtahandan və müsahibə mərhələsindən uğurla keçən xeyli kadrlar işlə təmin edilməyib və ehtiyat kadr kimi saxlanılır. Nazirliklərdəki vakant yerlərə isə müqavilə ilə və dolayı yollarla kənar şəxslər işə qəbul edilir. F.Mustafa təklif etdi ki, belə hüquqpozmalara görə məsuliyyət nəzərdə tutulmalıdır.

Spiker Oqtay Əsədov da bu kimi halları ciddi maliyyə pozuntusu kimi qiymətləndirdi və belə məsələlərlə bağlı ciddi tədbirlər görülməsini zəruri saydı.

**Deputat Zahid Oruc da bu sahədəki problemlərə diqqət çəkdi:** "Əgər dövlət qulluğuna imtahan verənlər kənarda qalırsa və müqavilə yolu ilə əlavə şəxslər işə qəbul edilirsə, bu, o deməkdir ki, biz yeni yaradılmış imtahan qurumuna elə səlahiyyətlər verməliyik ki, dövlətin kadrla təminatı mümkün olsun". Z.Oruc qəbul komissiyasında deputatların da təmsil olunmasını zəruri saydı: "Bunun nəyi pisdir ki? Biz qəbul etdiyimiz qanunun icrasına nəzarət edərik".

**Komitə sədri Əli Hüseynlinin** sözlərinə görə isə dövlət qulluğuna imtahandan uğurla keçmək o demək deyil ki, həmin şəxs sınaq mərhələsindən keçmədən dövlət qulluğunda çalışmalıdır.

İclasda "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanun layihəsi isə II oxunuşda müzakirəyə çıxarıldı. Layihə haqqında məlumat verən parlamentin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bildirdi ki, qanun layihəsi 2015-ci ilin dekabr ayında I oxunuşdan keçib və 4 aydır ki, üzərində işlər aparılır. Layihə müzakirələrdən sonra qəbul edildi.

**Bununla da Milli Məclisin yaz sessiyasının son iclası himnimizin oxunması ilə başa çatdı. Spiker Oqtay Əsədov bildirdi ki, 76 nəfər deputatın müraciəti ilə iyun ayında növbədənkənar sessiya keçiriləcək. Milli Məclisdən bildirilib ki, ilk iclas iyunun 21-də keçiriləcək.**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 118 (6439) 1 iyun 2016

# Sabiq MTN zabitinin 4 iyunla bağlı iddiaları aranı qatdı

## İlham İsmayılla Elçibəyin köməkçisi arasındakı qalmaqal böyüyür; tərəflər növbəti dəfə üz-üzə gəldilər

**Sabiq MTN zabiti İlham İsmayılla mərhum prezident Əbülfəz Elçibəyin köməkçisi Oqtay Qasımov arasında günlərdir davam edən qalmaqal böyüyür. Hər şey bir cümlədən başlayıb...**

İ.İsmayılın moderator.az-da illər öncə yazdığı kitabı dərc edilib. Onun yazısında 4 iyun Gəncə qiyamı ilə bağlı fikirləri Elçibəysevərlərin, o cümlədən O.Qasımovun ciddi qınağına tuş gəlib. İttihamlarda sabiq MTN zabitinin Elçibəyin hakimiyyəti planlı şəkildə təhvil verməsi ilə bağlı dolayı fikirlər səsləndirdiyi iddia olunur. İ.İsmayıl isə öz növbəsində facebook səhifəsində belə fikirlər səsləndirmədiyini qeyd edib. Amma bu da narazılığın qarşısını ala bilməyib. Hətta Qasımov sabiq polkovniki "özünü bazara çıxaran" şəxs kimi qələmə verib. Öz növbəsində İ.İsmayılın cavabı kifayət qədər sərt olub: "Fikir plüralizmini bir qəlibə yığıb "Heyvagülü" oynada bilməzsiniz, amma köməkçi və köməkçi kimilər həmişə "Heyvagülü" oynayacaq. Nə qədər istəyirsiniz oynayın".

Göründüyü kimi, hər iki tərəfin ittihamları havada uçur. Bütün bunlarla bağlı hər iki tərəfin mövqeyini aldıq.

**Elçibəyin köməkçisi musavat.com-a bildirdi ki, mərhum prezidenti haqlı tənqid edənlərə hörmətlə yanaşır:** "Məsələ qərəz, başqa bir ittiham formasına çevriləndə, reaksiya verməmək mümkün deyildi. İlham İsmayılın məqaləsindən o qənaətə gəlinir ki, 4 iyun qiyamı Elçibəy tərəfindən planlaşdırılıb və hakimiyyət planlı şəkildə ötürülüb. Bu fikirlərə etiraz etmişəm və düşünürəm ki, haqlı iradlar səsləndirmişəm. Özünə hörmət edən analitik, yazar, yaxud hər hansı bir araşdırma mərkəzi o qənaətə gəlməyib ki, 4 iyun qiyamı hakimiyyətin ötürülməsi üçün planlaşdırılıb. İlham İsmayıl deyib ki, Oqtay Qasımov Prezident Aparatında oturub tarixi saxtalaşdırmaqla məşğul olub. Bu, mənə ünvanlanmış bir fikir idi. Ona, sadəcə, cavab vermişəm. Azərbaycanda indiyə qədər İlham İsmayıldan başqa kimsə məni bu tipli məsələlərdə ittiham etməmişdi. Açığı, o məsələlərin üzərinə getməyi düşünmürəm. Çünki zaman ən doğru təbibdir. "Özünü bazara çıxaran" kimi fikirlərim ümumi formada yazılıb. Hər ilin bu zamanları maraqlı bir kampaniya başladılır. Bu kampaniyada maraq ondan ibarətdir ki, hər yerindən duran, məsələləri dərindən bilməyən hər kəs bütün mövqelərdən bu məsələlərə yanaşsınlar. Bu il də çox təəssüf ki, belə bir kampaniya başladı və qərəz, böhtan, təhqirlərlə dolu bir kampaniya oldu. Mən də buna münasibət bildirərək, bu kampaniyada iştirak edənləri, zamanında Elçibəyi təhqir edənlərin indi münasibətlərini görərək, onlara cavab verdim. Hesab edirəm ki, doğru da cavab vermişəm. Münasibət bildirəndə çalışmaq lazımdır ki, obyektivliyi itirməyəsən".



**Oqtay Qasımov:** "Doğru cavab vermişəm..."



**İlham İsmayıl:** "Tarixi danası deyiləm"

**İ.İsmayıl Elçibəyin köməkçisi ilə münasibətlərinin daim yaxşı olduğunu söylədi:** "Bu kitabı iki il əvvəl yazmışam. Sadəcə, indi saytda gedib. İndi yazmamışam ki, hansısa məqsədimin olduğu düşünülsün. O dövrdə Gəncədə işləyirdim. Hadisələrin içərisində olmuşam. Bunun üçün bilirəm ki, qiyamdan bir həftə əvvəl hökumət qüvvələri Surət Hüseynovun dəstəsini tərk-silah etmək üçün Gəncəyə gəlmişdi. Yazımda da bunlar var. Yazmamışam ki, hökumət qüvvələri hakimiyyəti təhvil vermək üçün Gəncəyə gəlmişdilər. Amma əməliyyat uğursuz olub. Bundan sonra qiyam baş verdi. Belə olan halda dövlətin vəzifəsi həmin hərbi qiyamı yatırmaq idi. Amma bunlar olmadı. Buna görə də demişəm ki, Elçibəy çıxış yolunu qiyamı yatırmaqda deyil, hakimiyyəti Heydər Əliyevə təhvil verməkdə gördü və gecənin birində Kələkiyə getdi. Amma Elçibəy Gəncə qiyamını planlamayıb, hətta 4 iyun günü orada əməliyyat olmalı idi. Yazıda qiyamı yatırmaq üçün dövlət başçısının üzərinə düşən vəzifələrin yerinə yetirilmədiyini qeyd etmişəm. Dediklərim bundan ibarətdir. Əgər belə deyilsə, deməli, tarixdə yaşamamışam və Elçibəy hakimiyyəti başqasına verib. Qənaətə gəlmək başqa anlam verir. İfadəm belədir ki, Elçibəyin atdığı və atmadığı addımlar hakimiyyətin süqutuna apardı. Atdığı addım təyyarəni Naxçıvana göndərmək oldu. Atmadığı addım isə qiyamı yatırmamaq oldu. Təyyarəni Naxçıvana göndərməklə məlum oldu ki, qiyamı yatırmaq deyil, Elçibəy hakimiyyəti təhvil verməyi çıxış yolu gördü. Tarixi danası deyiləm, hadisələr belə olub. Uzun-uzadı yazsam, gərək əlavə kitab yazım. Əvvəldən ideyam bu olub ki, şahidi olduğum hadisələri yazıram. O qədər şeylər eşitmişəm ki, heç birini yazmamamışam. 8 saatlıq görüş olub. Onun mənə dəxli? Bu barədə bir fikir deyə bilmərəm. Bəlkə də hakimiyyəti təhvil vermək həmin görüşdə planlaşdırılıb. Həmin vaxt dövlət işçisi olaraq, nazirimə zəng vururam ki, hökumət hansı tədbiri görəcək, deyir ki, heç bir tədbir görülməyəcək".

**Sabiq MTN zabiti O.Qasımovun onu Elçibəyin təşkil etdiyi partiyada uzun müddət təmsil olunmasına görə qınamasına da cavab verdi:** "Müsavat Partiyası nə Elçibəyin, nə də onun komandasının şəxsi partiyası deyil. Müsavat Azərbaycanın tarixi partiyasıdır. Ərizə yazanda qeyd etməmişəm ki, Elçibəy yolu ilə gedəcəm, onun davamçısı olacam. Bildirmişəm ki, Rəsulzadənin yaratdığı partiyaya üzv olmağı özümə şərəf bilirəm. Bu, Rəsulzadənin, milli öndərimizin yaratdığı partiyadır. Heç kəs bunu özəlləşdirib, Elçibəy komandasının adına çıxa bilməz".

❑ Cavanşir ABBASLI





# Azərbaycan əsilli yəhudi milyarderlər Qod Nisanov və Zarah İliyev mediamızda niyə vurulur?

## Dostu qova-qova düşmənə çevirmək mərəzi; varlığı, varidatı, beynəlxalq əlaqələri ilə vətən üçün iş görən adamları öz vətənində bu cür mətbu hücuma məruz qoya-qoya düşmənə çevirmək məqbul deyil

**Vaxtilə Azərbaycanda doğulmuş yəhudilərin sonradan hansı ölkələrdə olsalar belə böyüyüb boya-başa çatdıqları torpağa sədaqətli olduqları çoxlarına bəlli faktdır. Doğrudan da istər Qubada, istər Bakıda, istərsə də ölkəmizin digər yerlərində dünyaya göz açan yəhudi əsilli şəxslərin tam əksəriyyəti heç zaman bu torpağa nankorluq etməyiblər.**

Mixail və Yuli Qusman qardaşları da elədir, Zarah İliyev də, Qod Nisanov da, Telman İsmayılov da. Şübhəsiz ki, tanıdığımız, tanımadığımız başqaları da var.

Ancaq son günlər onlardan ikisini - Qod Nisanov və Zarah İliyev Azərbaycan mediasında hədəf taxtası halına gətirilib. Bəzi saytlar onların fəaliyyətini yaxından izləyir, Rusiyada fəaliyyət göstərən kriminal saytlara istinadla milyarderlərin barəsində müxtəlif cür yazılar verir, onları rus mafiyası ilə, ermənilərlə işbirliyində suçlayırlar.

Bu barədə redaksiyamıza bilgi verən mənbənin sözlərinə görə, əslində Qod Nisanov və Zarah İliyev qələmə verildikləri kimi deyil, onlara mətbuatda biçilən obrazdan çox uzaqda olan şəxslərdir.

Bildirilir ki, Azərbaycanda doğulmuş yəhudi əsilli bu milyarderlərin müəssisələrində, o cümlədən Moskva şəhərində yerləşən bazarlarında minlərlə azərbaycanlı çalışır və ailələrinə çörəkpulu qazanır. Qod Nisanovun dostlar çevrəsində azərbaycanlılar üstünlük təşkil edir.

Onun Rusiyanın siyasi dairələri ilə ciddi əlaqələri var və o, bu əlaqələrdən doğulduğu ölkənin mənafeyi üçün istifadə edir.

Nisanovun bu xidməti haqqında Azərbaycanın hakim dairələri də məlumatlıdır və onun bugünlərdə "Vətənə xidmət" medalı ilə təltif edilməsi səbəbsiz deyil *(yaxın günlərdə təltifin təqdimetmə mərasiminin olacağı deyilir)*.

Ona görə də öz varlığı, varidatı, beynəlxalq əlaqələri ilə vətən üçün iş görən adamları öz vətənində bu cür mətbu hücuma məruz qoya-qoya düşmənə çevirmək məqbul hərəkət deyil. Bunu edənlər maddi maraq güdməsələr də, ola bilər, maraqlı, sensasion xəbər dalınca qaçaraq belə materiallar yayırlar və nəticədə o adamlarla çalışan minlərlə azərbaycanlıya problem yaradırlar.

Ermənilər heç vaxt belə etmirlər. Onlar düşməni dosta çevirməyin yollarını tapmaq barədə düşündükləri halda, biz dostu düşmənə çevirməyin yolunu asanca tapırıq.

Bir şeyi unutmamalıyıq ki, əgər adları çəkilən və çəkilməyən iş adamları nə vaxtsa Azərbaycana qarşı müxalif mövqedə, düşmən səngərində olsalar, bunu hər şeydən məlumatlı dairələr hamıdan tez biləcək və lazımi tədbirlər görəcəklər.

❑ Musavat.com

# "Gecələr üzümə maska taxıb maşın güdmüşəm"

## Hafiz Hacıyev: "Kirayələrdə yaşayıram..."

**Müasir Müsavat sədri Hafiz Hacıyev moderator.az-a maraqlı açıqlamalar verib. H.Hacıyev deyib ki, o, prezidentə ən sadiq insan olsa da bu gün çox pis şəraitdə, kirayələrdə yaşayır: "Mən bütün həyatımı prezidentə həsr etmişəm. Ona qarşı xəyanət etmiş şəxsləri izləyirəm, axtarıram, araşdırıram. Bunu ilk dəfə sizə deyəcəm, hətta günlər olub ki, gecələr üzümə maska taxıb maşın güdmüşəm.**

Mən qardaşımı xəyanətkarlardan müdafiə etmək üçün hər şeyə hazıram. Prezidentin ətrafında olan bəzi nazirlər kinayə ilə mənə deyirlər ki, İlham Əliyev sənə bir ev belə verməyib, amma sən onu müdafiə edirsən. Təbii ki, belə insanların sözü mənim üçün əsas deyil, mənim üçün əsas prezidentə və dövlətçiliyə xidmətdir. Təsəvvür edin ki, Heydər Əliyevi təhqir edən birini deputat qoyurlar, sonra ona sayt açıb 50 min ayda pul verirlər. Biz bütün bunları çox gözəl görürük, kimin kim olduğunu da bilirik".



Hafiz Hacıyev

**H.Hacıyev deyib ki, bəzi həbslərlə bağlı əvvəldən etiraz etdiyini bildirib:** "O vaxt mən Leyla Yunus və Xədicə İsmayıl həbs olunanda bildirdim ki, bu, birbaşa prezidentə qarşı yönəlmiş addımdır. Belə də oldu. Qərbdə İlham Əliyevə qarşı geniş kampaniyalar başladı. Sabotajı görən prezident ittiham olunan şəxslərin bütün lazımi məhkəmə proseduru bitdikdən sonra o şəxslərin azad olunmasına şərait yaratdı. Azərbaycanda kənd təsərrüfatında vəziyyət çox pisdir, işsizlik geniş yayılıb. Amma prezidentə yalandan məlumat verirlər. Yaxud da Qarabağ məsələsində üzdə bir söz deyirlər, arxada başqa şeylər deyirlər. Rüşvət alırlar, yalandan deyirlər haqqın bir hissəsi yuxarı çatacaq".

YENİ MÜSAVAT
N 118 (6439) 1 iyun 2016

# "Hakimiyyət AB ilə tərəfdaşlıq sazişi imzalamaq istəyir"

## Ekspertlər masa üzərində olan təklifləri şərh etdilər

**Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 98-ci ildönümü münasibətilə keçirilən bayram mərasimində çıxışı zamanı deyib ki, bütövlükdə Azərbaycan-Avropa Birliyi əlaqələrinin formalaşdırılması istiqamətində təkliflər indi masa üzərindədir. Yaxın zamanlarda ciddi danışıqlar başlanacağına ümid edilir.**



Bəs masa üzərində Avropa Birliyi ilə danışıqlarda nələr nəzərdə tutula bilər, prezidentin verdiyi açıqlama Avropa Birliyi ilə yaxınlaşmanın yeni mərhələyə daxil olacağının anonsu sayıla bilərmi?

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bildirdi ki, Avropa Birliyi (AB) Şərq Tərəfdaşlığı Proqramında keçmiş 6 postsovet respublikası iştirak edirdi. İndi Şərq Tərəfdaşlığı Proqramında anormal bir vəziyyət yaranıb. Belə ki, bu proqrama daxil olan 6 ölkədən üçü-Gürcüstan, Ukrayna, Moldova artıq AB ilə assosiativ saziş imzalayıb və azad ticarət zonası haqqında razılıq əldə edib. Ermənistan və Belarus Avrasiya İqtisadi Birliyinə daxil olub. Azərbaycan isə heç bir addım atmayıb. Ermənistan və Belarus Avropa Birliyi ilə heç bir saziş imzalamaq niyyətində deyil, saziş imzalamadan əməkdaşlıq etmək istəyir. Azərbaycan isə Avropa Birliyi ilə ayrıca-ikitərəfli tərəfdaşlıq sazişi imzalamaq istəyir: "Bu sazişi imzalamaqda məqsəd odur ki, siyasi sahədə Azərbaycan öz üzərinə heç bir öhdəlik götürmür. Yəni demokratiya, insan haqları, ədalətli seçkilərin keçirilməsi istiqamətində heç bir öhdəlik götürülmür. İkitərəfli tərəfdaşlıq sazişi əsasən iqtisadi maraqları nəzərdə tutur.

Diqqət etdinizsə, İlham Əliyev Azərbaycan hakimiyyəti ilə təzyiq dili ilə danışmağın qəbuledilməz olduğuna işarə edib. Heç bir başqa ölkənin daxili işinə qarışmadığını, heç kimə də bizim daxili işimizə qarışmasına imkan verilmədiyini deyib və bildirib ki, bu da bəzi qüvvələr tərəfindən qəbul edilmir, onu hədəfə alırlar. İlham Əliyevin verdiyi bəyanatın sətiraltı mənası odur ki, mənə siyasi sahədə təzyiq etməyin, bundan artıq güzəştə gedəsi deyiləm.

İndiki halda Azərbaycana həm Avropa Birliyi və ABŞ tərəfdən, həm də Rusiyadan təzyiq var. Azərbaycan hakimiyyəti hər zaman Rusiyanın adını çəkməkdən çəkinir. Ona görə də əsasən bu cür mesajlar Avropa Birliyi və ABŞ-la münasibətlər kontekstində verilir. Bu mesajda başlıca məqsəd ondan ibarətdir ki, əgər Avropa Birliyi Azərbaycanla tərəfdaşlıq etmək istəyirsə, biz ancaq iqtisadi, ticarət sahəsində tərəfdaşlığa hazırıq. Siyasi və demokratik islahatlar sahəsində güzəştə getmək fikrində deyil".

**Yeni yaradılmış AXCP-nin sədri Razi Nurullayev də bildirdi ki, Azərbaycan Avropa Birliyi ilə ikitərəfli strateji tərəfdaşlıq sənədi imzalamaq istəyir. Ola bilsin ki, ölkə rəhbəri masa üzərində olan təkliflər deyərkən bunu nəzərdə tutub:** "Son on ildə Avropa Birliyi Azərbaycanın neft sektoruna qoyulan bütün sərmayələrin 42%-nə, qeyri-neft sektorunun isə 35%-nə sahibdir. Yəni əsas sərmayəçi Avropa Birliyidir. Əgər Azərbaycanla Avropa Birliyi arasında daha yaxın münasibətlər qurulsa və ölkəmiz Şərq Tərəfdaşlığı çərçivəsində assosiasiya sazişinə imza atsaydı, o zaman bu pay daha da böyük ola bilər və dolayısı ilə manatın da möhkəmlənməsinə töhfə vermiş olardı. Azərbaycanın əsas tərəfdaşının Avropa Birliyi olduğu halda assosiasiya sazişini imzalamaqdan vaz keçməsinin tək səbəbi Rusiyadır. Azərbaycan Rusiyanı tapdalayıb keçmək istəmir. Bəs bunun müqabilində nə qazanırıq? Heç nə. Əgər Rusiya Dağlıq-Qarabağ münaqişəsinin ədalətli həllində Azərbaycana yardımçı olmursa, biz niyə dövlətimizin iqtisadi maraqlarına zərbə vurmalıyıq? Ölkədə ağır iqtisadi-sosial böhran davam edir. Əhali kifayət qədər kasıblaşıb. İşsizlik pik həddə çatıb. Belə bir vəziyyətdə Avropa Birliyi ilə daha yaxından əməkdaşlıq vacibdir. İlham Əliyev də münasibətlərin yeni mərhələyə qədəm qoya biləcəyi ilə bağlı anons verib. Lakin Azərbaycanın siyasi elitasının assosiasiya sazişi imzalaması real görünmür. Yəqin ki, söhbət Azərbaycan tərəfinin Avropa Birliyinə təqdim etdiyi strateji tərəfdaşlıq sənədindən gedir. Amma əminəm ki, Avropa Birliyi bu sənədi müzakirə etmək istəmir. Əgər onlar Azərbaycanla ikitərəfli qaydada belə bir saziş imzalayarsa, o zaman bütünlükdə Şərq Tərəfdaşlığı təhlükə altına alına bilər. Bu presedentin yaranması Avropa Birliyinin marağında olmayan məsələdir".

Qeyd edək ki, R.Nurullayev dünən Brüsseldə Avropa Birliyi Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunda iştirak edib.

❑ **E.SEYİDAĞA**

# AXCP-Müsavat danışıqlarında ilk nəticə var

## İki partiya arasında ittihamlar səngiyib

**Müsavatla AXCP arasında başqan müavini Tofiq Yaqublu azadlığa çıxdıqdan sonra əməkdaşlıq istiqamətində danışıqlar davam edir. Müsavat başqanı Arif Hacılının facebook statusunda T.Yaqubluya danışıqlar istiqamətində görəv verməsini yazması bu prosesləri daha da sürətləndirib.**

Məhz bundan sonra başqan müavini AXCP rəhbərliyi və ardınca da sədr Əli Kərimli ilə görüşdü. Amma hələ ki danışıqlar istiqamətində ciddi irəliləyişlər nəzərə çarpmır. Lakin diqqət yetirəndə görürük ki, əvvəlki zamanlarda olan hər iki qurum arasındakı narazılıqlar, sosial şəbəkələr və mətbuatdakı söz savaşından əsər-əlamət qalmayıb. Yalnız bu amili danışıqlar istiqamətində uğur saymaq olar.

**T.Yaqublu "Yeni Müsavat"a açıqlamasında ümidli danışdı:** "Gürcüstandan yeni gəlmişəm. Arada bayram günləri olduğu üçün ilk dəfə müavinliyin iclasındayam. Bir daha deyirəm ki, Müsavat və AXCP arasındakı birləşdirmə məsələsini mətbuat düzgün təqdim etmir. İlk gündən demişəm ki, münasibətlərin yaxşılaşdırılması, gələcəkdə münasibətlərin yaxşı olması üçün bu prosesləri aparıram. O da uğurlu alınır. Müsavat başqanı da buna dəstək verdi. Bu prosesdən də çox ümidliyəm. Burada hansısa birlik, blokdan söhbət getmir. Özünüz müşahidə edəndə görəcəksiniz ki, qarşılıqlı ittihamlar xeyli səngiyib. Məncə, bunun sonluğu yaxşı olacaq. Hələ ki ilk mərhələni uğurla başa vurmuşuq. Azərbaycanın tarixində taleyüklü anlar gələcək. Ölkənin real müxalif qüvvələrinin bir yerdə olması, mübarizə aparması çox zəruridir. Qarşımıza hədəf qoymamışdıq ki, bu iş bir aya başa çatacaq. İstənilən halda mübarizə aparırıqsa, müəyyən hədəflərə çatmaq istəyiriksə, gücümüz çox olmalıdır. Bir var ki, bizimlə eyni düşüncədə olan insanlar bizə rəqib olsunlar, bir də var ki, ya loyal münasibətləri olsun, ya da bizi dəstəkləsinlər. O zaman məsələ daha yaxşı olar".

❑ **Cavanşir ABBASLI**



# Düşmən nəfəsi kəsən müttəfiqlik



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Azərbaycanın müdafiə naziri Zakir Həsənov Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə Türkiyədə azərbaycanlı hərbçilərin də iştirak etdiyi təlimləri izləyib. Ölkənin yeni baş naziri Binali Yıldırım və Baş Qərargah rəisi Hulusi Akar da təlimləri müşahidə edib.**

İlk dəfə qeydə alınan belə bir möhtəşəm fakt söz yox ki, iki qardaş ölkənin hərbi sahədə əməkdaşlığının necə yüksək səviyyədə davam etdiyinin növbəti və bariz təzahürüdür. Qarabağ savaşının, haqq savaşının hələ bitmədiyi, qarşıda olduğunu nəzər alsaq, Türkiyə-Azərbaycan hərbi ittifaqı indi heç vaxt olmadığı qədər qiymətli dəyər statusu daşıyır.

Təlimlər zamanı Ərdoğanın Zakir Həsənovun əlini sıxılı halda saxlayaraq, bir neçə dəqiqə söhbət eləməsi, əslinə qalsa, elə ordumuzun, Azərbaycanın "əlini sıxması" demək idi. Eyni zamanda Azərbaycan düşmənlərinə - işğalçı Ermənistana və onun havadarlarına özlərini yığışdırmaq üçün aydın və güclü bir xəbərdarlıq mesajı idi. Türkiyənin daima öz qardaşının yanında odluğunun əyani şəkildə çatdırışı idi. Bundan az öncə Türkiyə müdafiə naziri Qəbələdə oxşar mesaj vermişdi.

Türkiyə mediası yazıb ki, quruda, suda, havada həyata keçirilən və yerli istehsallı "Atak" helikopterlərinin də qatıldığı təlimlər izləyicilərə yaxşı mənada həyəcanlı anlar yaşadıb. Amma təlimlərin pis mənada ən çox həyəcan doğurduğu izləyicilər əlbəttə ki, Türkiyədən kənarda - Rusiyada, Ermənistandadır. Onlar həm təlimlərdən, həm də bu təlim zamanı Türkiyə lideri və Ali Baş Komandan Ərdoğanın azərbaycanlı nazir-generalın əlini sıxmasından öz dərslərini, paylarını artıq götürüblər, əmin ola bilərsiniz.

Dəfələrlə yazmışıq, bir də vurğulayaq ki, Qarabağ məsələsinin ədalətli həllinə ən güclü qarant nə Qərb olacaq, nə də Rusiya. Bu qarant - Türkiyə-Azərbaycan müttəfiqliyidir. Bütün sahələrdə, ələlxüsus da hərbi sahədə strateji əməkdaşlığımız enində-sonunda ixtilafın beynəlxalq hüquq normaları çərçivəsində həllinə öz qəti və yekun töhfəsini verəcək.

Bəzən bu müttəfiqliyi Rusiya-Ermənistan ittifaqı ilə müqayisə edirlər. Yanlış yanaşmadır. Ona görə ki, Türkiyə-Azərbaycan təbii müttəfiqliyindən fərqli olaraq, erməni-rus iş birliyi heç bir dost-qardaşlıq prinsipi və ya mənəvi dəyərlər üzərində qurulmayıb və mayasında da sırf antitürk hədəfi daşıyır. Ona görə də müvəqqətidir.

İndinin özündə, xüsusən də apreldəki 4 günlük müharibədə acı məğlubiyyətdən sonra ermənilər məmnuniyyətlə Kremldən imtina edib Avropadan, ABŞ-dan yapışardılar - əlbəttə ki, əmin olsaydılar ki, o halda rusların qəzəbinə tuş gəlməyəcəklər. Yəni bu, müstəsna olaraq regiondakı cari siyasi və geosiyasi maraqlardan doğan, Türkiyə və Azərbaycana qarşı olan bir hərbi-siyasi izdivacdır və o üzdən də əbədi sürə bilməz.

Ayrı sözlə, Ermənistan və Rusiya, - daha çox da işğalçı ölkə - bir-birinə sadəcə, dəhşətli dərəcədə möhtacdır. Türkiyə-Azərbaycan müttəfiqliyi isə əksinə, əbədidir. Ona görə ki, təməli ortaq siyasi maraqlardan daha çox, sağlam və həmişəyaşar dəyərlər üzərində qurulub, üstəlik, kimsəyə qarşı yönəlməyib.

Ermənistan Rusiyanın vassalı olsa da, olmasa da, Qarabağ problemi qalsa da, qalmasa da, Türkiyə və Azərbaycanda hakimiyyətlər dəyişsə də, bu müttəfiqlik bitən deyil. "İki dövlətin bir milləti" durduqca, "bir millət-iki dövlət"in dost-müttəfiqliyi də duracaq. Ortaq türk düşmənlərini daima həyəcanda saxlayan əsas fərq, özəllik də budur.



# İyrənc oğurluq

Zamin HACI
zaminhaci@gmail.com

**Bu yaxında rayonlardan birində üstünə çoxlu parça qırığı bağlanmış ağac gördüm. Fikirləşdim ki, ey dadi-bidad, əslində bizim klassiklər yüz-yüz əlli il qabaq belə pirlərə, ocaqlara lağ edəndə, xalqın bu əski inanclarını tənqid atəşinə tutanda yanılıblar. Gül kimi inanclar sistemi imiş... Bir insanın ağaca, təbiətə inam gətirməsində nə pis şey var idi ki? Mən uşaq olanda ailəmdən, nənələrimdən eşitmişdim ki, əncir və çinar ağacları müqəddəsdir, qutsaldır, onları kəsib sobada yandırmaq günahdır. Ərəblər gəlib bizim atəşə, şamanizmə, təbiətə inancımızı baltaladılar, bizə günahsız insanların başını kəsməyi təbliğ elədilər. Təbiət də yaddan çıxdı getdi. Kaş elə adamlar yenə dağdağan ağacının göz qaytarmasına inansınlar, bütün Orta Doğuda, müsəlman aləmindəki kimi, başqa inancdan olan adamın gözünə dağdağan çubuğu soxmasınlar.**

Yəqin Haqverdiyev sağ olsa "Pir" hekayəsini başqa cür yazardı. Mirzə Cəlilin Şeyx Nəsrullahı isə indiki vəhhabi "qonaqlarımıza" baxanda peyğəmbər övladı kimi bir zatdır.

Sözümün canı odur ki, bir çox hadisələr, əşyalar, faktlar göründüyü kimi deyil. Xəbər lentində belə başlıq oxumuşdum: "Bakıda iyrənc əməl! Mətbəxdə xadiməni soydular". Sən demə, oğurluq zamanı xadimənin cəmi... 5 manatı çalınıbmış. Şanlı müstəntiqlərimiz dərhal fəaliyyətə keçib, oğru isti izlərlə yaxalanıb. Görün Azərbaycanda düzgünlük, hüquqi sabitlik hansı üst səviyyəyə çatıbdır ki, artıq kiminsə 5 manatı oğurlananda jurnalistlər bunu iyrənc əməl kimi manşet edirlər! Heyrətamizdir. Bu şəraiti yaratdığı üçün dövlət rəhbərliyinə dərin minnətdarlığımı bildirir, jurnalistlər üçün tikiləcək növbəti binanın damında yaşamağa icazə istəyirəm. Ordan buludsuz səmamıza, Günəşin doğma Azərbaycanımızı şəfəqlərə boyamasına tamaşa edəcəyəm.

Kim bilir, bəlkə də o 5 manat həmin xadimənin sonuncu güman yeri idi, belə oğruların əlini kəssən azdır. Hər tikəsini qulağı boyda edib Vircin adalarında, ofşor hesablara basdırmalıyıq, qoy bir də xadimələrin, yetim-yesirlərin beş manatına göz dikməsinlər. Lazım gəlsə xadimənin 5 manatı ətrafında petisiya imzalanmalı, İctimai Televiziyada tok-şoular efirə getməlidir. Manıslar demişkən, efirlərə.

Petisiya yazdım yadıma düşdü, indi bir qrup adam düşüb ortalığa, Bakımızın gözəlləşməsini istəmirlər. Deyirlər guya köhnə binalar, tarixi abidələr salamat qalsın. Tarixi saxlamağın mənası yoxdur, biz gələcəyə baxmalıyıq. Gələcəyimizi qorumalıyıq. Misal üçün, SOCAR-ın təzə ofisi Şirvanşahlar sarayından qat-qat əzəmətlidir. Lazım gəlsə biz bu ofisi Şirvanşahlar sarayı adıyla turistlərə göstərməliyik. Köhnə sarayda isə yaxşı kafe açmaq olar - dairəvi quruluşu, talvarlar masa qoymaq üçün əladır. Xanın divanxanasının böyrünü azca bağlasan kafenin mətbəxi üçün ideal yerdir. Qız qalası da elə əvvəldən tüstü borusuna oxşayır.

Sabitliyə bir dənə də misal çəkim, gül kimi faktdır. Bu günlərdə bir qrup jurnalist daxili işlər nazirinə müraciət imzaladılar. Yazırlar ki, son illərdə 5-dən çox jurnalistin evinə oğrular giribdir, əllərinə keçəni aparıblar. Xahiş edirlər nazir bu cinayətləri nəzarətə götürsün.

Deməli, artıq oğrular jurnalistlərdən başqa soymağa adam tapmırlar. Yalnız jurnalistlər evi tərk edirmiş, qalan hamı bekarçılıqdan evdə oturur *(Əlbəttə, beş-on oğru üçün açılan yeni iş yerini nəzərə almasaq)*. Vah-vah. Tutub belə oğruların da əlini kəsəsən, deyəsən nə üçün ölkəmizdəki sabitliyi, elə bu jurnalistlərin sayəsində yaranan vətənpərvər informasiya mühitini gözünüz görmür?! Ayıb deyilmi? Gedin soğan əkin, tikinti-quruculuq işləri ilə məşğul olun, xaricdə ölkəmizi təbliğ edin.

Yox, əl kəsmək çox radikal hərəkətdir, qoy həmin oğruları tutub jurnalist işləmək cəzasına məhkum etsinlər. Onda anlayarlar ki, yazıq jurnalistlər necə əzabla pul qazanırlar. Bəlkə o zaman haqqın yoluna dönərlər.

İndi söz əlaqədar oğrularındır.

# Kreml İrəvanı müttəfiqlər siyahısından çıxara bilər - şok gəlişmə




# Putinin müşaviri Ermənistanı hədələdi - "Bu, Rusiyaya qarşı həddi aşmaqdır..."

## Erməni hərbi cinayətkara İrəvanda abidə ucaldılması Moskvada qəzəb doğurdu - aprel məğlubiyyətinə görə işğalçı ölkənin öz müttəfiqindən qisas almaq istəyi bumeranq effekti doğurdu; rusiyalı tanınmış ekspertlər od püskürdü, müttəfiqlik münasibətlərini pozmaq, Ermənistana nota vermək çağırışları səsləndi...

**Rusiya ilə Ermənistan arasında siyasi qalmaqal yetişir. Qalmaqala səbəb isə bugünlərdə İrəvanın mərkəzində ermənilərin 2-ci Dünya müharibəsinin qəhrəmanı hesab elədikləri general Qaregin Njdeyə abidə ucaldılmasıdır. Məsələ də ondadır ki, Moskva müharibə zamanı SS-in erməni legionuna rəhbərlik eləmiş bu şəxsi hərbi cinayətkar hesab edir.**

"Belə bir abidənin açılması Moskvanın diplomatik kanallarla təcili reaksiyasına səbəb olmalıdır". Bu barədə Rusiya prezidenti Vladimir Putinin etibarlı şəxslərindən biri, prezident yanında İctimai Palatanın üzvü, politoloq Sergey Markov "Vestnik kavkaza" nəşrinə açıqlamasında deyib.

**Putinin müşaviri bu faktı "dəhşətli" adlandırıb:** "Belə bir abidənin açılması sübut edir ki, erməni cəmiyyətində Rusiya əleyhinə köklənmiş güclü qüvvələr var. Axı Rusiya alman nasizminə qalib gələn əsas ölkədir. İrəvanın belə bir davranışı bütün məqbul formatları aşmaqdır və Rusiyanın qətiyyətli reaksiyasına səbəb olmalıdır" - o deyib.

**Politoloqun sözlərinə görə, postsovet ölkələrinin milli siyasəti ortaq tarixin üstündən xətt çəkməməlidir.** "Alman nasizmi ilə əməkdaşlıq eləmək, demək, həm də onun dəhşətli cinayətlərində, o cümlədən rus xalqının soyqırımında iştirak eləmək istənilən xidmətin üstündən xətt çəkməlidir. Moskva İrəvandan nasist cinayətkarların qəhrəmanlaşdırılması siyasətini dayandırmağı tələb eləməlidir. Və bu tələb həmişə Rusiya-Ermənistan danışıqları stolu üstündə olmalıdır" - politoloq vurğulayıb.

***

Rusiyalı tanınmış tarixçi alim və siyasi analitik Oleq Kuznetsov da fakta sərt münasibət bildirib. Öncə o, Qaregin Njde və onun silahdaşlı Andranikin - "General Dro"nun "xidmətlərini" xatırladıb: "Bu iki şəxs erməni legionlarının yaradılmasında aktiv iştirak edib. Həmin legionlar öncə Vermaxtın *(faşist ordusu-red.)* tərkibində olub, sonralar, 1944-cü ildə isə beynəlxalq Nrünberq Tribunalının qərarı ilə qadağan edilmiş və cinayətkar elan olunmuş "SS" qoşunlarının tərkibinə daxil edilib. Həmin strukturlarla əlaqəsi olan bütün şəxslər avtomatik olaraq, hərbi cinayətkar sayılırlar - üstündən nə qədər müddət ötməsindən asılı olmayaraq".

**Bu xüsusda tarixçi-alim Njdeyə abidənin qoyulmasını Ermənistanda faşizmin reabilitasiyası kimi qiymətləndirir:** "Bu isə beynəlxalq hüquqa tamamilə ziddir. Belə bir addım təkcə daxil üçün deyil, həm də xaric üçün anlam daşıyır. Bu onu göstərir ki, Köçəryan-Sərkisyan Qarabağ klanının siyasi rejimi erməni cəmiyyətini səfərbər eləmək üçün beynəlxalq situasiyanın istənilən gərginliyinə getməyə hazırdır. Mahiyyət etibarilə biz artıq Ermənistanın müəyyən mənada özünütəcrid kursu götürdüyündən danışa bilərik. Hakimiyyəti qorumaqdan ötrü prezident Sərkisyan və onun ətrafı getdikcə daha çox Şimali Koreyadakı siyasi rejimə oxşamağa başlayıblar".

**Analitikin qənaətincə, rəsmi İrəvanın bu siyasəti Rusiyanı mürəkkəb vəziyyətə qoyur:** "Belə çıxır, Rusiya faşist cinayətkarlarına münasibətdə beynəlxalq normaları açıq şəkildə qulaqardı edən bir ölkə ilə müttəfiqdir. Bu mənada Rusiyanın siyasi rəhbərliyi qarşısında asan olmayan seçim dayanır. Fikrimcə, bu addım Rusiya-Ermənistan əlaqələrinin sonrakı stabil durumuna kömək eləməyəcək və Moskva İrəvana münasibətdə tonu dəyişməli olacaq. Ən azından etiraz notası verilməli və orada qısa müddətdə abidənin sökülməsi tələbi qoyulmalıdır. Tam mümkündür ki, Rusiya Ermənistanla əlaqələrin formatını dəyişsin, bu əlaqələri aşağı səviyyəyə endirsin və ya İrəvanı müttəfiqlər siyahısından çıxarsın".

**Öz növbəsində Milli Strategiya İnstitutunun prezidenti Mixail Remizov hesab edir ki, Ermənistan belə addımla Rusiyadan və onun rəsmi tarixindən məqsədli şəkildə məsafə saxlamaq niyyətindədir.** "Görünür, İrəvana Qarabağ zonasındakı son döyüş əməliyyatları zamanı Rusiyanın tutduğu mövqedən öz narazılığını hansısa formada göstərmək lazım imiş. Hazırda erməni cəmiyyətində Moskvaya münasibətdə bildiyim qədər, çox güclü bir qıcıq var. Bu qıcıq isə ədalətsiz və əsassızdır, nədən ki, Rusiya ciddi diplomatik səylər göstərdi ki, hərbi konflikt genişlənməsin və Qarabağ münaqişəsinin hərbi yolla həlli qaçılmaz olmasın. Status-kvonun saxlanması, hər halda, erməni tərəfinə sərfdir, nəinki Azərbaycana. Azərbaycana Rusiya silahlarının satılmasının praktik cəhətdən heç bir önəmi yoxdur, çünki bu silahlar başqa ölkələrdən də alına bilər. Ona görə də burada inciklik var, nəinki sağlam siyasi məntiq. Yekun etibarilə də orta-da Rusiya-Ermənistan əlaqələri üçün çox neqativ bir fon yaranıb" - ekspert qeyd edib.

**Onun sözlərinə görə, müttəfiq ölkədə hərbi cinayətkara abidə ucaldılması - Rusiyaya daha bir dərs olmalıdır.** "Moskva postsovet məkanında müttəfiqlik məsələsinə maksimum praqmatik yanaşmalı, heç nə zamanda illüziya ilə yaşamamalıdır. Son vaxtlar Ermənistandan gələn həyəcanlı siqnallar kifayət edir ki, bu ölkə ilə strateji tərəfdaşlığın xarakteri ilə bağlı müəyyən nəticələrə gələsən" - sonda politoloq fikrini tamamlayıb.

***

Əslində rusiyalı politoloqların şərhlərində qırmızı xətt kimi keçən fikir budur ki, xüsusən də apreldəki ağır məğlubiyyətindən sonra Moskvadan incik düşən Ermənistan özünə Qərb, NATO timsalında yeni ağa axtarışına çıxıb və əlverişli məqam yetişən kimi Rusiyanı yeni sahibinə dəyişəcək. Hərgah, bunun bədəli işğalçı ölkə üçün olduqca ağır ola bilər. Hər halda Rusiyanın Ermənistanın arxasından müvəqqəti də olsa çəkilməsi yetər ki, Azərbaycan öz əraziləri qısa müddətdə işğaldan azad eləsin.

Yəqin ki, məsələ Rusiya prezidenti Vladimir Putinlə onun erməni həmkarı Serj Sərkisyan arasında dünən Astanada keçirilmiş görüş zamanı da diqqətdə olub. Görəsən, forpost və vassal Ermənistanın öz gerçək sahibinə qarşı belə demarşı nə qədər çəkəcək, abidə tezliklə uçurulacaqmı?

❑ **Analitik xidmət**

**May ayı Cənubi Qafqaza NATO qoşunlarının daxil olması ilə də yadda qaldı. NATO-nun bir hərbi kontingenti, hərbi texnikası ilə birlikdə 15 gün ərzində qonşu ölkənin ərazisində hərbi təlimlər keçdi. Ekspertlər bu hadisənin təkcə Gürcüstan deyil, həmçinin digər Cənubi Qafqaz ölkələri üçün də əhəmiyyətli hadisə olduğunu bildirirlər.**

# Azərbaycan-NATO münasibətlərinin gedişatı hara aparır?

## Sülhəddin Əkbər: "Bu addımlar atılmadan Azərbaycanın NATO-ya həqiqi inteqrasiyası başlamayacaq"

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** hesab edir ki, hansı sahədə olursa-olsun, NATO ilə hərbi və siyasi baxımdan əlaqələrin inkişafı müsbət qiymətləndirilməlidir. May ayında Gürcüstanda keçirilən NATO-nun hərbi təlimlərinin ən mühüm cəhəti ondan ibarət idi ki, bu təlimlərdə Gürcüstan tərəfindən iştirak edən bir bölük NATO Çevik Reaksiya Qüvvələrinin tərkib hissəsinə daxil edildi. Bu təlimlərin ən böyük hərbi strateji nəticəsi budur: "Yəni artıq bu təlimlərdə iştirak edən Gürcüstanın bir rotası NATO sertifikatı aldı. Artıq biz deyə bilərik ki, Gürcüstanda rəsmi olaraq NATO-nun məhdud hərbi kontingenti var. Bu, çox mühüm bir məsələdir. Ötən ilin avqustunda Gürcüstanda NATO ilə birgə Təlim və Qiymətləndirmə Mərkəzinin yaradılmasından sonra bu, ikinci çox ciddi addımdır. Artıq NATO Gürcüstanda öz hərbi iştirakını təmin edib. NATO-nun Gürcüstanda hərbi iştirakının təmin olunması o deməkdir ki, artıq bu gün Gürcüstanda Rusiya və NATO qüvvələri qarşı-qarşıya durublar. Bu, Gürcüstanın əlaqələrinin inkişafında, onun NATO-ya üzvlüyü istiqamətində çox ciddi bir addımdır. Heç kəsə sirr deyil ki, Gürcüstan NATO üzvlüyünə tam hazırdır. Sadəcə olaraq, Almaniya başda olmaqla, Avropanın bir sıra ölkələri Rusiya faktoruna görə buna qarşı çıxırlar. Gürcüstan NATO üzvlüyünə hazırlıqla bağlı özündən asılı olan hər şeyi edib".

**Azərbaycan-NATO münasibətlərinə gəldikdə isə S.Əkbər bildirdi ki, burada durum tam fərqlidir:** "Azərbaycanın rəhbərliyi dəfələrlə bəyan edib ki, onlar nəinki NATO-ya üzv olmağa, hətta Avropa Birliyi ilə assosiativ saziş imzalamağa belə niyyətləri yoxdur. Azərbaycanın NATO ilə əməkdaşlığı fərdi tərəfdaşlıq proqramı çərçivəsində qalıb. İllərdir Azərbaycan NATO ilə fərdi tərəfdaşlıq proqramı çərçivəsində tərəfdaşlıq edir. Bu, Gürcüstan-NATO münasibətləri ilə müqayisədə kifayət qədər aşağı səviyyədir. Ona görə Azərbaycanın NATO-ya inteqrasiya etməsi üçün çox böyük yol qət edilməlidir. Bunun üçün birinci növbədə Azərbaycan öz strateji seçimini etməlidir, daxildə demokratiyaya keçid etməli, xarici siyasət vektorunda Avroatlantik məkana real inteqrasiya xəttini seçməlidir. Bu addımlar atılmadan Azərbaycanın NATO-ya həqiqi inteqrasiyası başlamayacaq".

**Ekspertin fikrincə, ölkəmizin NATO ilə yaxınlaşması müdafiə və hərbi sahədə NATO standartlarına yaxınlaşması deməkdir:** "NATO və Azərbaycan Silahlı Qüvvələrinin standartları yaxınlaşdıqca, gələcəkdə birgə təlimlərin, hərbi əməliyyatların keçirilməsi də mümkün olur. Eyni zamanda bu, Azərbaycanın müasir döyüş qabiliyyətinə, strategiya və taktikasına yiyələnməsinə gətirib çıxaracaq. Ölkəmizin hərbi büdcəsinin planlaşdırılmasından tutmuş, strateji planlaşdırılmasına qədər zabitlərimizin müasir hərbi elmi öyrənməsi ilə nəticələnəcək. Bu mənada istənilən sahədə NATO-Azərbaycan əlaqələrinin inkişafı müsbət qiymətləndirilməlidir".

**S.Əkbərin sözlərinə görə, Qarabağ problemi kimi ciddi problemi olan və hər an müharibə ilə üz-üzə dayanan bir ölkənin heç bir hərbi ittifaqda yer almaması, əksinə, Qoşulmama Hərəkatında olması ziyanlıdır. Bu durum gələcəkdə ölkə üçün**



**arzuolunmaz vəziyyət yarada bilər:** "Təcavüzə məruz qalan, ərazisinin bir hissəsi işğal olunan Azərbaycanın bu gün Qoşulmama Hərəkatında olması, heç bir hərbi ittifaqda təmsil olunmaması zərərlidir. Qarabağ məsələsində bu vəziyyət bizim ziyanımıza işləyən bir durumdur. Azərbaycanın Qoşulmayanlar Hərəkatında qalması və heç bir hərbi ittifaqda olmaması ölkənin Milli Təhlükəsizlik Konsepsiyasına da uyğun deyil. Azərbaycan demokratik respublika olduğunu elan edib və 2007-ci ildə qəbul elədiyi öz Milli Təhlükəsizlik Konsepsiyasında Avroatlantik məkana inteqrasiyanı başlıca strateji hədəfi seçib. Amma bu günə kimi Azərbaycan heç bir hərbi ittifaqda təmsil olunmur. Azərbaycan nə Gürcüstan kimi NATO-ya xeyli dərəcədə yaxınlaşmış durumda deyil, nə hər hansı KTMT-yə üzvdür, nə də iki və ya çoxtərəfli başqa hərbi ittifaq müqavilələri yoxdur. Təbii, müttəfiqimiz olan qardaş Türkiyə ilə belə, hərbi ittifaq müqaviləmiz yoxdur. Bu, Azərbaycanın milli maraqlarına uyğun gəlməyən bir vəziyyətdir".

**S.Əkbər bildirdi ki, bunu guya Rusiya faktoru ilə izah edirlər, lakin Gürcüstan nümunəsinə nəzər salınanda bu izahatın əsaslı olmadığı ortaya çıxır:** "Deyirlər ki, Azərbaycan hansısa hərbi ittifaqa qoşulsa, Rusiya tərəfindən təzyiqlərə məruz qala bilər. Mən isə Gürcüstanla Azərbaycanı müqayisə eləməyi təklif edirəm. Gürcüstanın əraziləri olan Abxaziya və Cənubi Osetiya işğal olundu, Rusiya qoşunları ancaq Abxaziyanın və Cənubi Osetiyanın inzibati sərhədlərində dayanıb. Oradan irəli getməyib. Amma Dağlıq Qarabağ regionu və ətrafındakı 7 rayon işğal olunub. Bütün dünya ölkələri Rusiyaya görə Gürcüstanın müstəqilliyini, ərazi bütövlüyünü, sərhəd toxunulmazlığını birmənalı dəstəkləyir. Gürcüstan NATO üzvü olmaq istiqamətində bütün addımları ata bilib. Sabah Rusiya zəifləyən kimi Gürcüstan asanlıqla öz ərazi bütövlüyünü təmin edəcək. Dünya birliyi isə Gürcüstanın addımını birmənalı dəstəkləyəcək. Azərbaycanın hətta bu gün Rusiya geri çəkilsə belə, ərazilərinin bərpası istiqamətində atacağı hərbi addımlara dünya birliyi tərəfindən birmənalı dəstək olacağına tam əminlik yoxdur. Çünki Azərbaycan NATO kimi hərbi ittifaqlarla Gürcüstan qədər sıx əməkdaşlıq qurmayıb. Azərbaycan buna nail olsa, Qarabağ məsələsində mövqelərini daha da gücləndirər və dünyadan birmənalı dəstək əldə edər".

Qeyd edək ki, Azərbaycan Qoşulmama Hərəkatına 2011-ci ildə üzv olub. Hakimiyyətə yaxın şəxslər isə bəyan edirdilər ki, bu, Azərbaycanın NATO ilə, Türkiyə ilə hərbi sahədə tərəfdaşlıqdan imtina edəcəyi demək deyil, Qoşulmama Hərəkatına üzv olması Azərbaycanın hər hansı beynəlxalq təşkilatla münasibətləri genişləndirməyinə mane olmayacaq. Məsələn, istənilən vaxt Azərbaycan Qoşulmama Hərəkatından çıxaraq, NATO-ya üzv olmaq istiqamətində addımlar ata bilər.

❑ **Etibar SEYİDAĞA**

# ABŞ prezidenti yapon xalqından üzr istədi-reaksiyalar...

## Obamanın addımı birmənalı qarşılanmayıb; fikirlər müxtəlifdir

**ABŞ prezidenti Barak Obamanın Yaponiyadan üzr istəməsi dünya gündəmini zəbt edib. Yaponiyaya səfəri çərçivəsində 1945-ci ildə İkinci Dünya müharibəsinin sonlarına yaxın Xirosimo və Naqasaki şəhərlərinə atılan atom bombaları nəticəsində həlak olanları yad edən Obama öz ölkəsi adından üzrxahlığını ifadə edib.**

Bu isə dünya tərəfindən birmənalı qarşılanmayıb və geniş müzakirələrə səbəb olub. Kuba və İranla olan gərginliyi aradan qaldırmaqla adını tarixə yazdıran Obama prezidentlik döneminin bitməsinə yarım il qalmış daha bir ilkə imza atdı. Onun addımına ikili münasibət var. Müdafiə edənlər və etməyənlər arasında ciddi bir fərq yoxdur. Ekspertlər hesab edirlər ki, bu cəsarətli addımla 8 illik prezidentlik müddətində xarici siyasətdə o qədər də uğurlar qazanmayan Amerika prezidenti bununla bir növ səhvlərini sığortalamaq istəyib.

**Politoloq Qabil Hüseynli ABŞ prezidentinin addımını belə dəyərləndirir:** "1945-ci ildə müharibə bitmək üzrə idi. Yaponiya isə təslim olmaq ərəfəsində idi. Hər iki yapon şəhərinə atom bombası atmaq yeni nüvə silahının sınaqdan keçirilməsi ilə bağlı idi. Yapon hökumətini təslim olmağa vadar etmək deyil, Amerikanın hərbi gücünü dünyaya sübut etmək məqsədi daşıyırdı. İki atom bombası nəticəsində 600 mindən çox insan həlak oldu. Milyondan çox sakin radiasiya xəstəliyinə tutuldu. Bu xəstəliklərin nəticələri bu gün də onların nəsillərində özünü büruzə verməkdədir. Şikəst doğulmuş uşaqlar, əqli çatışmazlığı olan şəxslər buna bariz misaldır. Bütün bunlar Yaponiyaya ciddi zərbə vurdu. Bir növ dünya xalqları bununla başa düşdülər ki, nüvə silahı ilə zarafat etmək olmaz. Müharibədən sonra Amerika-Yaponiya münasibətləri sürətlə düzəlməyə başladı. Çünki həmin dövrdə SSRİ bölgə üçün ciddi əhəmiyyət daşıyan imperiyaya çevrilmişdi. Bu amillərə görə ABŞ-Yaponiya münasibətləri müsbətə doğru sürətlə dəyişdi. Qısa müddətdə müttəfiqlik əlaqələri yaradıldı. Hazırda Yaponiya dünyanın ən inkişaf etmiş ölkəsi sayılır və Amerikanın müttəfiqi hesab olunur. Barak Obamanın səfəri 7 böyük dövlətin Zirvə toplantısı ilə bağlı idi. Belə toplantıda bu gedişin edilməsi böyük əhəmiyyətə malik idi. ABŞ bununla həm nüvə təhlükəsizliyinin qarşısını alınmasının zərurətini anlatdı, həm də müəyyən mənada bütün dünyanın gözü qarşısında alçaldılan yapon xalqından üzr istəməklə amerikan xalqının böyüklüyünü və yaponlara olan hörmətini nümayiş etdirdi. Baş verənlər dünya üçün də ibrətamiz addımdır. Dünya bir daha nüvə silahının təhlükəsini, necə acı nəticələrinin olduğunu xatırladı. Bir sözlə, Barak Obama bu addımı atmaqla adını tarixə yazdırdı. Amerikanın ləyaqətini, dünya qarşısındakı məsuliyyətini müdafiə edən addım atmış oldu".




**Qabil Hüseynli: "İbrətamiz addımdır"**

**Politoloq Obamanın xarici siyasətdə uğursuz olması ilə bağlı fərqli düşünür:** "Obamanı müəyyən məsələlərdə cəsarətsiz və ehtiyatlı davranan prezident kimi qiymətləndirirlər var. Amma o, prezidentliyinin ilk illərində əsas diqqəti ölkənin daxilindəki problemlərə yönəltdi. İraqdan qoşunların çıxarılması və Liviya ilə bağlı mövqe Amerikanın xarici siyasətində qiymətləndirilən məsələlərdəndir. Kubadakı Quantanamo həbsxanasını ləğv edə bilməsə də, fəaliyyətini aşağı sala bildi. Orada təhlükəli bir neçə məhbusdan başqa kimsə qalmır. Amma onun xarici siyasətini uğursuz saymaq düzgün deyil. Hətta ona fəaliyyətinə görə Nobel mükafatı da verdilər. Bu baxımdan Obama tarixə bir daha düşüb. Çünki ABŞ prezidentləri içərisində heç kəs fəaliyyətləri dönəmində bu mükafatı almayıb. Obamanın ehtiyatlı siyasət yeritməsini təbii qarşılamaq lazımdır. Böyük bir dövlətin taleyini ona tapşırıblarsa, buna məcbur idi. Bircə onun Rusiya ilə siyasəti tənqid olunub, bundan sonra da olunacaq. O, Amerika tarixinə qaradərili prezident kimi düşməklə yanaşı, həm də ABŞ prezidentləri sırasında ən bacarıqlı şəxs kimi adı çəkiləcək".

❑ **Cavanşir ABBASLI**



# İqbal Ağazadəyə Seyid Cəfər Pişəvəri mükafatı verilib

## İsveçdə elan olunan mükafata daha bir neçə məşhur layiq görülüb



**Stokholmda Güney Azərbaycan Konqresinin təşkilatçılığı, habelə Odlar Yurdu dərnəyi və milli fəal Rza Qaraçayın əməkdaşlığı ilə 22 May Güney Azərbaycanda Oyanış Hərəkatının başlanması və 28 May Cümhuriyyət Günü münasibətilə start götürən "Oyanışdan Qurtuluşa" adlı tədbirlər həftəsi sona çatıb.**

"Oyanışdan Qurtuluşa" həftəsinə "Borçalı" Cəmiyyətinin sədri, tanınmış ictimai xadim Zəlimxan Məmmədli və Ümid Partiyasının sədr müavini Rüfət Muradlı dəvətli olsalar da açılış tədbirində onların obyektiv səbəblərə görə tədbirdə iştirak edə bilməmələri iştirakçıların nəzərinə çatdırılıb və Zəlimxan Məmmədlinin göndərdiyi müraciət oxunub. Tədbirdə elan olunub ki, ictimai-siyasi, elmi və incəsənət fəaliyyətlərində Güney Azərbaycan məsələsini hər zaman diqqətdə saxladığına və Güneydəki soydaşlarının haqlı mübarizəsinə daim dəstək olduqlarına görə Güney Azərbaycan Konqresinin 22 may tarixli qərarı ilə İqbal Ağazadə, Zəlimxan Məmmədli, Rüfət Muradlı, Yasəmən Qaraqoyunlu, Solmaz Kosayeva və AMEA Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin əməkdaşları Seyid Cəfər Pişəvəri mükafatına layiq görülüblər. Tədbirin davamında Odlar Yurdu dərnəyinin sədri Sevinc Bakılı və digər iştirakçılar 22 may və 28 may haqqında çıxış ediblər. Sonda Güney Azərbaycan Konqresinin 10 illiyi münasibətilə təbriklər səslənib və GAK-ın gördüyü işlər, apardığı mübarizə barədə danışılıb.

"Oyanışdan Qurtuluşa" adlı həftə çərçivəsində Güney Azərbaycandakı son durum, milli haqlar uğrunda soydaşlarımızın mübarizəsi, habelə Quzey Azərbaycanın İstiqlala qovuşmasından sonra üzləşdiyi sorunlar, Ermənistanın işğalçılıq siyasəti ilə bağlı İsveç Parlamentinin deputatları ilə görüşlər keçirilib. GAK-ın sədri Abdulla Əmir Haşimi Cavanşirin rəhbərliyi və İsveç Qarabağ Cəmiyyətinin sədri Ayda Əmir Haşiminin iştirakı ilə mayın 24-də Moderatlar Partiyasından parlamentarilər Kristina Lutz və Marqaret Cederfeld, daha sonra sosial demokrat millət vəkili Andrine Vinter ilə görüşlər gerçəkləşdirilərək, o taylı-bu taylı Azərbaycanın həqiqətləri onların diqqətinə çatdırılıb. Bundan başqa, həmin heyətin İsveç Xarici İşlər Nazirliyində də analoji mövzuda görüşü olub.Həftə çərçivəsində tədbirlərdən biri də Sevinc Bakılının rəhbərlik etdiyi İsveç Odlar Yurdu Cəmiyyətinin təşəbbüsü ilə keçirilən 28 May Cümhuriyyət Günü ilə bağlı olub. Tədbir Stokholmda yaşayan soydaşlarımızın çıxışları və bayram ovqatlı musiqi proqramları ilə yadda qalıb.

İsveçdə Güney Azərbaycan Konqresinin təşəbbüsü və Odlar Yurdu Dərnəyinin əməkdaşlığı ilə start götürən Oyanışdan Qurtuluşa həftəsi dünən sona çatıb.

❑ ETİBAR

# Rəsul Quliyevin Bakıdakı nümayəndəsindən iddialı açıqlamalar

## GAP sədri Ağasif Şakiroğlu: "Vaxtilə yüksək vəzifə tutmuş şəxslərin birliyi hakimiyyət üçün ciddi təhlükədir"

**Durğunluq dövrünü keçirən Azərbaycan müxalifətinin az da olsa, fəaliyyəti nəzərə çarpaçaq qurumları var ki, bunlardan biri də Gələcək Azərbaycan Partiyası (GAP) dır. Amerikada mühacirətdə yaşayan eks-spiker Rəsul Quliyevin Azərbaycanda siyasi dayağı sayılan bu partiya Antiböhran Koalisiyasında təmsil olunur.**

Mövcud olduğu iki il ərzində qeydiyyat üçün müraciət etməyən **GAP sədri Ağasif Şakiroğlu** öncə dedi ki, bu müddət ərzində daha çox təşkilatlanmağa üstünlük veriblər. Onun fikrincə, qarşıdakı zamanlarda siyasət aləmi canlananda hər kəs qurumun gücünü görəcək.

"Digər müxalif partiyalar varlıqlarını nələri ilə göstəriblər? Onların konkret standart tədbirlər paketləri var. 20 Yanvar, Xocalı faciəsi və digər bu kimi tədbirləri nəzərdə tuturam. Son illərdə hansı siyasi partiyanın mitinq keçirdiyini, ölkə gündəmini dəyişdiyini desəniz, sözümə görə onlardan üzr istəyərəm. Hətta ana müxalifət iddiasında olan partiyalar belə yox dərəcəsində olublar. Onların etdiklərini biz də etmişik. Sadəcə, "bunu niyə cəmiyyətə göstərməmişik" sualı meydana çıxsa, deyə bilərəm ki, onların əllərində olan mətbuat imkanları bizdə olmayıb. Hətta onların etdiklərindən daha keyfiyyətli tədbirlər keçirmişik, fəaliyyət göstərmişik. Sadəcə, fəaliyyətimiz media tərəfindən işıqlandırılmayıb. Bu o demək deyil ki, fəaliyyət göstərmirik. Partiya aktivliyindən heç bir narazılığım yoxdur. Situasiya yetişəndə, güc baxımından özlərini öndə görən partiyaları qabaqlayacağıq. Hər şeyi zaman göstərəcək" deyir müsahibimiz.

**- Qeydiyyatdan keçməmisiz. Bu istiqamətdə işlər gedirmi?**

- Doğrudur, hələ də qeydiyyatdan keçməmişik. Bunun çətinlikləri var. Əsas da seçkilərdə iştirak baxımından. Amma səmimi şəkildə deyirəm ki, qeydiyyat üçün müraciət etməmişik. Hazırda partiyalar içərisində ən gənc rəhbər mənəm. Müraciət etməməyimizin səbəbi var. 2010-cu ilin parlament seçkilərini tanımadıq. Buna qarşı İctimai Palata yaratdıq. 2013-cü ildə Milli Şura olaraq seçkilərə getdik və yenə də nəticələri tanımadıq. Həmin seçkilərin nəticələrindən doğan nazirliyə qeydiyyat üçün necə müraciət edək? Bunun üçün öncəliklə nəticələri tanımalıyıq. Bu, dediyimiz sözə sahib çıxmamağımız anlamına gələr. AXCP bu gün qeydiyyat davası aparır. Ədliyyə Nazirliyini məhkəməyə verir. Bu məntiqsiz bir şeydir. Tanımadığınız hakimiyyətin qurumuna necə müraciət edirsiniz? Məhz bu amillərə görə Ədliyyə Nazirliyinə müraciət etmədik. Bundan sonra da müraciət etmək niyyətində deyilik. Ola bilər ki, gələcəkdə qeydiyyatdan keçmiş hansısa partiya ilə birləşək.

**- Müsavat da qurultaydan sonra nazirliyə müraciət etdi...**

- Birmənalı bu müraciəti qəbul etmirəm. Bu, qəbul etmədiyin seçkilərin legitimliyini tanımaqdır. 23 ildəki uğursuzluğun kökündə duran səbəblərdən biri də budur. Buna beynəlxalq qurumlar da baxır. Məsələn, həbsxanadan prezidentə məktub yazırsan ki, "cənab prezident, məhbusları azad et, məni saxla". Burada hansı məntiq var. Tapan varsa izah etsin, ondan sonra üzr istəyirəm.



### "AXCP-nin bu gün qeydiyyat davası aparması məntiqsizdir"

**- Rəsul Quliyevin indiyədək Azərbaycanda yaratdığı partiyalardan ən zəifi sizi hesab edirlər...**

- Partiyamızın daxilində Rəsul bəyin tərəfdarları çoxluq təşkil edir. Amma partiyanın birbaşa Rəsul bəyə tabeçiliyi yoxdur. Partiyanın sədri mənəm, onun siyasi kursunu mən müəyyən edirəm. Amma mən də daxil olmaqla, partiya üzvlərinin Rəsul bəyə böyük simpatiyası var. Rəsul Quliyevin Azərbaycandakı nümayəndəsiyəm. Bunu gizlətmirəm. Rəsul bəylə partiyanı birləşdirən cəhət ölkəmizdəki nümayəndəsinin mən olmağımdır. Amma partiyanın ona heç bir aidiyyəti yoxdur, heç üzvü də deyil. Partiyamızın lideri olmasını hərçənd çox istəyirik və zamanla bu mümkündür. Rəsul bəyin Azərbaycanda qurduğu qurumlar deməzdim uğursuz olublar. ADP-ni qeyd edə bilərəm ki, Rəsul bəyin liderliyi altında daha aktiv fəaliyyət göstərirdi. Məhz onun gedişindən sonra ADP-nin zəifləməsinin hər kəs şahidi oldu. ACP-də də eyni aqibət yaşandı. Adımızın Rəsul bəylə hallanmasından şərəf duyuram. Partiya üzvləri də həmçinin. Rəsul Quliyev liderimdir. Bəzi şəxslər ola bilsin ki, Rəsul bəylə əlaqələrinin olmasını gizlətsinlər. İqtidarın üst qatını nəzərdə tuturam. Amma mənim üçün problem yoxdur. Rəsul bəyi səmimi siyasətçi, bir dost kimi yüksək qiymətləndirirəm. Rəsul bəy zərurət görərsə, partiyanın Məclisi toplaşıb, onu lider kimi rəsimləşdirə bilər. Siyasi təcrübə baxımından onunla daim məsləhətləşirik. Çətin vaxtlarda Azərbaycanın ikinci şəxsi olub. Bu baxımdan onun təcrübəsi bizim üçün çox önəmlidir.

**- Partiya yaradarkən bildirmişdiniz ki, həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanov və Almaniyada mühacirətdə olan Hüseyn Abdullayev də sıralarınızda olacaqlar...**

- Hər iki şəxsin bizimlə olacağı barədə iddiaları təkzib etmişəm. Həmin şəxslər ictimai-siyasi həyatda nüfuzları olan şəxslərdir. Biri bir qədər çox, digəri də az. Zərurət yaranarsa, bu məsələ müzakirə mövzusu ola bilər. Hüquqi pozulmuş şəxslər kimi onları daim müdafiə etmişik. Aramızda heç bir danışıq olmayıb. Amma istisna etmirik ki, olmayacaq. Bu məsələlər açıqdır.

**- İnsanovun azadlığa çıxmasına beş aydan az müddət vaxt qaldı. Siyasətlə məşğul olacağı deyilir. Birlik olacaqmı?**

- Onun yerinə danışmağa ehtiyat edirəm. Rəsul bəy barədə desəniz açıq cavab verərəm. Əli İnsanov siyasətdə iştirakla bağlı qərar versə, siyasət dəyişər. Çünki çox potensiallı şəxsdir. 23 ildəki uğursuzluğu aradan qaldıra biləcək qüvvə iqtidarın mətbəxindən çıxmış şəxslərin birliyindən asılı ola bilər. Bu sırada Əli müəllim və digərləri var. Daha böyük uğuru iqtidarın mətbəxindən çıxa bilən, mətbəxə daha dərindən bələd olan, zamanla bu mətbəxdə təmsil olunan şəxslərin birliyi qazanacaq. Bu, mövcud hakimiyyət üçün ciddi təhlükədir. Ona görə Rəsul Quliyev ölkəyə buraxılmır, İnsanov həbsdə saxlanılır. Hakimiyyət özünə təhlükə gördüyü şəxsləri proseslərdən uzaq tutmağa çalışır. Bu şəxslər mövcud müxalifəti böhrandan çıxara bilərlər, demokratik dəyişiklikləri sürətləndirərlər. Bu birliyə zərurət görürəm. İnsanov siyasi fəaliyyətlə məşğul olacaqsa, mütləq bu məsələləri nəzərdən keçirəcəyinə əminəm.

**- Bu fikirləriniz Rəsul Quliyev-Əli İnsanov birliyinin anonsu kimi qəbul edilə bilərmi? Fərhad Əliyevi də bu sıraya daxil etmək olar...**

- Bu suallara İnsanovun qapısı açılandan sonra daha rahat cavab vermək olar. Allah bütün günahsız insanların qapısını açsın. Əli müəllim və Rəsul bəyin nə düşündüyünü deyə bilmərəm. Bu birlik niyə də olmasın? Fərhad Əliyevin nə düşündüyünü deyə bilmərəm. Amma Rəsul Quliyev, Lalə Şövkət, Əli İnsanov, Eldar Namazov, Fərhad Əliyev və digərlərinin birliyi olarsa, effekt verəcəyi şübhəsizdir. Bu, hakimiyyətin daxili sirlərini bilən xarizmatik liderlərin birliyi olar. Amma qarşı tərəfin mövqelərini bilmirəm. Zaman göstərəcək. Əgər tərəflər nəticə istəsələr, belə bir birlik gündəmə gələcək. 2005-də saxta ittiham olan dövlət çevrilişində Rəsul bəyin əli ola bilməzdi. Hər on ildən bir belə ittihamlar olur. 1995, 2005 və 2015-ci illərin hadisələrini nəzərdən keçirək, hər şey ortaya çıxacaq. Qarşıdakı illərdə bu tipli hadisələrin şahidi yenə də ola bilərik.

**- Rəsul Quliyev İnsanov başda olmaqla, hakimiyyət tərəfindən "vurulmuş" şəxslərdən birlik təklifi gəlsə, qəbul edəcəkmi, sizcə?**

- Sağlam insanlardan gələn ideyalara Rəsul bəy hər zaman açıqdır. Təfəkkür etibarı ilə demokratik düşüncəyə sahibdir. Təşəbbüs olarsa, Rəsul bəy dəyərləndirə bilər. Bunu əminliklə deyirəm.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 118 (6439) 1 iyun 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Qarabağ danışıqlarında kritik ay başladı - dönüş, yoxsa döyüş?

## Prezidentlərin budəfəki görüşünə İrəvan hiyləgər və pozucu bir taktika ilə getmək istəyir; işğalçı ölkənin planını kim pozacaq? Ermənistanda 4 günlük müharibəyə görə qalmaqallı həbslər; **rus ekspert:** "Ermənilər daha vuruşmaq istəmirlər..."

**Vyana görüşündən sonra Qarabağ danışıqlarında böyük ümid bəslənilən iyun ayı başladı. Məhz bu ay həmsədrlər apreldəki döyüşlərdən sonra sülh prosesinin bərpasının davamlı olması üçün Azərbaycan və Ermənistan prezidentləri arasında növbəti birbaşa təmasın baş tutacağına ümid edirlər.**

Vyana danışıqlarından az sonra ATƏT-in Minsk Qrupu həmsədrlərinin yaydığı bəyanatda da iyun ayı bu xüsusda önəmli bir period kimi təqdim olunur. Ancaq Azərbaycan tərəfi artıq bəyan edib ki, görüş xətrinə görüşlərdə, status-kvonu işğalçının xeyrinə süni şəkildə uzatmağa xidmət edən təmaslarda iştirak eləmək niyyətində deyil və belə təmaslarda heç bir fayda görmür. Təcavüzkar ölkəni isə belə görünür ki, iyun görüşlərindən öz gözləntisi var.

Məsələ ondadır ki, 4 günlük müharibədə acınacaqlı məğlubiyyətlə üzləşən işğalçı tərəf iyun danışıqları ərəfəsi daxili auditoriyanı, erməni ictimai rəyini məşğul eləmək üçün isterik şəkildə "800 hektar ərazi" söhbətini ortaya atıb, danışıqlar ətrafındakı kövrək etimad atmosferinə tamamilə ziyanlı bir taktika seçib. Guya bu məsələ də qarşıdakı sülh danışıqlarının predmeti olacaq və hətta 1 sentyabra kimi "hansısa yolla" geri qaytarılacaq.

Azərbaycan işğaldan azad elədiyi əraziləri təzədən Ermənistana verəcəkmiş. Əlbəttə ki, tam absurddur. Çünki 800 hektar torpaq da, ermənilərin əlindəki digər min kvadrat kilometrlərlə ərazilər də Azərbaycana məxsusdur. Azərbaycan nəinki aldığı torpaqları geri qaytarmaq fikrində deyil və ola bilməz, əksinə, Ermənistan qeyri-konstruktiv mövqe tutmaqda davam edərsə, yerdə qalan ərazilərini də işğaldan azad eləməkdə qətiyyətlidir.

***

"800 hektar söhbəti" Ermənistanın iyun danışıqlarına, prezidentlərin nəzərdə tutulan görüşünə münasibətinin, bu görüşə nə ilə gedəcəyinin bir anonsu sayıla bilər. Bir çox ekspertlər də hesab edir ki, əslində rəsmi İrəvan qarşıdakı görüşün belə tezliklə baş tutmasında maraqlı deyil, çünki öz tərəfindən real güzəştlərin, əraziləri azad eləməyin vaxtı çatdığını anlayır. Bu isə indiki Ermənistan hakimiyyətinin, Sərkisyan rejiminin süqutu deməkdir. O üzdən İrəvan bacardıqca status-kvonu uzatmağa, danışıqlarda diqqətin yalnız təmas xəttində monitorinqi və nəzarəti gücləndirmək mexanizmlərinə yönəltməsinə çalışır.

**"Problem ondadır ki, Ermənistanın Qarabağa dair özünün az-çox inandığı bir nizamlama planı - hansı planla ki, Sərkisyan azərbaycanlı həmkarının görüşünə gələ bilsin - yoxdur. İrəvanın konstruktiv təkliflər zənbili tamamilə boşdur. Bu zənbildə heç vaxt sağlam, işlək ideyalar olmayıb. İndi isə erməni isteblişmenti, ümumiyyətlə, hansısa təklif izhar eləmək gücündə deyil, ona görə ki, onu qorxu hissi sarıb - elementar, faktiki surətdə heyvani qorxu hissi".**

**Bu sözlər ABŞ-Azərbaycan İnkişafa Dəstək Fonunun baş eksperti Aleksandr Sinitsinın vesti.az-dakı analitik məqaləsindəndir. Müəllif yazır:** "Hələ lap yaxınlarda üçüncü ölkələrdən olan ekspertlər bir nəfər kimi iddia edirdilər ki, əgər Serj Sərkisyan 4 günlük müharibə zamanı ərazi itkisini etiraf eləsə, o zaman qəzəbli erməni cəmiyyəti Ermənistan rəhbərliyini hakimiyyətdən silib atacaq, ordu coşacaq, xalq imkan verməyəcək və s. və i.a. Nə oldu bəs? Xalq susdu, rəsmi şəxslər, o sırada hərbçilər isə bir-birini inandırmağa çalışdılar ki, həmin ərazilər əhəmiyyətsiz imiş və ümumiyyətlə, onları sakit vicdanla unutmaq olar".

Ekspertin əminliyinə görə, tək səbəb ermənilərdə yaranmış qorxu hissidir: "Ermənilər daha vuruşmaq istəmirlər. Məhz buna görə də həm prezident Serj Sərkisyan, həm müdafiə naziri Seyran Ohanyan, həm də baş erməni diplomatı Edvard Nalbəndyan isterik şəkildə bütün dünyadan hansısa təhlükəsizlik qarantları tələb edirlər. Bu isterika 4 günlük müharibənin ilk günlərindəcə başlamışdı. O vaxt Sərkisyan "Bloomberg" agentliyinə müsahibəsində demişdi ki, əgər həmin qarantlar olmasa, Ermənistan danışıqlar prosesindən çıxacaq. Bəs indi hara yox oldu ermənilərin bu davakarlığı və lovğalığı? Paradoks da ondadır ki, 4 günlük müharibəni tər-təmiz uduzan Ermənistan ATƏT-in əli ilə Azərbaycanı güc yolu ilə öz ərazi bütövlüyünü bərpa eləmək hüququndan məhrum eləmək istəyir - hansı yoldan ki, Bakı heç vaxt imtina eləməyib".

**Analitik əmindir ki, "nizamlamanın" bu variantı qəti şəkildə Azərbaycan üçün qəbuledilməzdir:** "Amma İrəvan Bakıya başqa bir şey təklif edə bilmir. Təəssüf ki, erməni hakim elitası anlaqlığın işarəsini belə itirib. Odur ki, heç cür təsəvvürə gətirmək olmur ki, iyunda Azərbaycan və Ermənistan prezidentlərinin görüşü hansı şərtlərdə baş tuta bilər. Bakının mövqeyi indi kifayət qədər güclüdür. Bu mövqe ona imkan verir ki, yalnız hansısa diplomatik "qaloçka" xətrinə belə sammitə getməsin".



***

Bununla belə, iyunla bağlı bəzi nikbin ehtimallar da səslənməkdədir. Bütün hallarda Qarabağ danışıqları üçün kritik sayılan bir ay - iyun artıq başlayıb. Nəticədən, İrəvanın özünü necə aparmasından asılı olmayaraq Azərbaycan həmişəki kimi, vaxt itirmədən özünün hərbi potensialını durmadan artırmalı, müharibə olmasa belə, işğalçı ölkənin hərbi güclə təhdidinə davam etməlidir.

Bundan ötrü Azərbaycanın qardaş Türkiyə ilə hərbi əməkdaşlığı, ortaq hərbi təlimlər indi heç vaxt olmadığı qədər böyük önəm daşıyır. Yeri gəlmişkən, iki ölkə hərbi qüvvələrinin mayın ikinci ongünlüyündə başlamış təlimlər mayın sonunda yekunlaşıb. Azərbaycan Silahlı Qüvvələri öz döyüş təcrübəsini bir qədərə də artırıb.

Xəbər verildiyi kimi, "Efes-2016" beynəlxalq təlimlərin yekun mərhələsində iştirak eləmək üçün Azərbaycanın müdafiə naziri Zakir Həsənov şəxsən Türkiyəyə gedib. Az öncə Türkiyə Silahlı Qüvvələri Baş Qərargah rəisi, digər türk generallar, son olaraq isə Türkiyə müdafiə naziri ölkəmizdə səfərdə olmuşdular.

Bəllidir ki, bu kimi səfərlərin quruca baş tutması belə, işğalçı Ermənistanı ciddi narahat edir. Lakin bu, erməni tərəfinin problemidir. Düşmən, nəhayət, anlamalıdır ki, zəbt etdiyi yad torpaqlardan tezliklə çəkilməsə, bunu ona zorla etdirəcəklər və Azərbaycan ərazisi gec-tez işğalçılar üçün məzar yerinə, son mənzilə çevriləcək.

***

**Bu arada Ermənistanda 4 günlük müharibədəki uğursuzluğa görə Müdafiə Nazirliyinin rəhbərliyində həbslərin genişlənməsi barədə xəbər yayılıb. Məlumatı Ermənistan İstintaq Komitəsi yayıb (virtualaz.org).**

**Məlumata əsasən, bəzi yüksək vəzifəli hərbçilər ötən axşam həbs edilib.** "Rəsmən təsdiq edirəm ki, mayın 30-da axşam general Mels Çilingəryan, polkovniklər Mqer Papyan və Armen Marqaryan həbs olunublar. Həbslər iki müxtəlif cinayət işinin istintaqı çərçivəsində həyata keçirilib. Söhbət aşağı keyfiyyətli malların alınması, bəzi hallarda şişirdilmiş qiymətə alınması faktları ilə bağlı qaldırılmış cinayət işlərindən gedir" - İstintaq Komitəsinin rəsmisi Sona Tuzyan bildirib.

Xatırladaq ki, general Mels Çilingəryan Ermənistan Müdafiə Nazirliyinin silah idarəsinin rəisi olub. O, bir neçə gün əvvəl işdən azad edilmişdi. Mayın 18-də isə Müdafiə Nazirliyinin avtomobil xidmətinin rəisi, polkovnik David Abramyan həbs olunub. Habelə aprelin sonlarında Ermənistan Müdafiə Nazirliyinin üç generalı işdən qovulub.

Müdafiə Nazirliyinin rəhbərliyində bu işdən qovulmalar və həbslər aprelin əvvəllərində Qarabağa gedən 4 günlük hərbi əməliyyatlar zamanı Ermənistan ordusunun verdiyi itkilər, habelə ordunun təchizatı ilə bağlı üzə çıxan acınacaqlı vəziyyətlə bağlıdır. Habelə bu hərbi əməliyyatlar zamanı qaçıb gizlənən, ancaq döyüşlər dayanandan sonra üzə çıxan erməni polkovnik, Mataqik polkunun komandiri Arutyun Əmirxanyan işdən azad edilib. O, Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Yuri Xaçaturovun qohumudur.

YENİ MÜSAVAT
N 118 (6439) 1 iyun 2016



# Turistləri ölkədən qaçıran amil - tamahkarlıq

Xalid KAZIMLI

**Ahıl adamların sözü olmasın, acı aylar çıxan kimi, dünya əhli çamadanlarını qablayır, dinc, təhlükəsiz ölkələrə səyahətlərə çıxırlar. Maydan başlamış ta oktyabra qədər bir çox dünya ölkələrində turist qaynaşır.**

İstirahətə gedənlər bu sıraya aid deyil, onların əsas məqsədi isti aylarda dincəlməkdir və bundan ötrü isti dənizlərə, qumlu sahillərə malik ölkələrə gəlirlər. Ancaq səyahət həvəskarları passiv istirahətin tərəfdarı deyillər, Avropanın hər bir guşəsində olmuş bu şəxslər Alyaskadan vurub Çilidən çıxır, Taiti adasından Ficiyə keçir, Xokkaydodan Sumatraya adlayır, dünyanın bütün ekzotik ölkələrində olmaq istəyir, buna milyardlarla dollar həcmində vəsait xərcləyirlər.

Dünyanı ayaqaltı edən turistlərin çox kiçik bir hissəsi ölkəmizə də təşrif buyurur. Ancaq onların sayı o qədər azdır ki, əksəriyyətini təsadüfi, "azan-təzən turistlər" qrupuna aid etmək olar.

Planetin dilbər guşələrindən olan Qafqaz diyarında yerləşən ölkələrdən yalnız Gürcüstan istisnadır, yerdə qalanında turizm sahəsi bərbaddır.

Gürcüstan isə bu işin sirrini çözmüş kimi görünür.

Elə dünən "Yeni Müsavat"ın sabiq əməkdaşı Aygün Muradxanlı qonşu ölkədə gördüklərinə dair sosial şəbəkədə aşağıdakı qeydləri yazıb: "Tiflisdə nə idman, nə musiqi yarışması var, amma şəhər turistlərlə doludur. Çoxu ruslar və ərəblərdir. Hotellər, kafe-restoranlar dopdoludur. 3 gündə bir dəfə də olmadı ki, çay, ya yemək üçün getdiyim məkanda sıra gözləməyim. Tələbin çoxluğu qiymətləri qaldırıb. 1 dollar 2.14 laridir. Belə turist axını ciddi gəlirlərdir, çox güman ki, lari möhkəmlənəcək. Tiflisin ünlü kazinosu "Şanqrila"nın önü Bakı nömrəli maşınlarla doludur. 15-20 dəqiqə körpünün üstündə müşahidə aparmaq yetər ki, içəridən ciddi və tələsik çıxıb maşınlarına minən "milli məmur"ların bir neçəsini görəsən".

Söhbət burdan basa-basa Tiflisə qumar şövqünü öldürməyə gedənlərdən getmir. Söhbət ondan gedir ki, Tiflisdə əcnəbiləri ölkəyə cəlb etmək üçün bir çox vasitələr düşünülüb, müvafiq şərait yaradılıb və bu ölkə turistlər üçün sərfəli, təhlükəsiz, cazibədar bir məkana çevrilib.

Ötən ilin yayında, Bakıda Avropa Oyunlarının keçirildiyi günlərdə bu sətirlərin müəllifinin yolu Tiflisə düşmüşdü. Elə o zaman da qonşu ölkənin paytaxtında əcnəbi turistlər çox idi. Sanmaq olardı ki, Avropa miqyaslı idman tədbiri Bakıda yox, Tiflisdə keçirilir.

Hər ilin bu aylarında bizdə də dövlət səviyyəsində turizmin inkişafına dair tədbirlər, toplantılar təşkil olunur, brifinqlərdə ölkəyə turist cəlb etməyin dürlü incəliklərindən bəhs edilir. Bu mövzuda onlarla yazı yazılır, televiziya verilişləri hazırlanır. Ancaq nə xeyri? Bu sahədə vəziyyət dəyişmir ki, dəyişmir.

Deyilə bilər ki, müvafiq infrastruktur yoxdur, ona görə də ölkəyə turist axınını cəlb etmək olmur. Elə deyil. Son illər Bakıda və bir sıra əyalət şəhərlərində (Mingəçevir, Quba, Qəbələ, Gəncə, İsmayıllı) olduqca komfortlu, yüksək standartlara cavab verən otellər istifadəyə verilib, istirahət məkanları açılıb. Əcnəbilər istəsələr, bu məkanlarda əla istirahət edə bilərlər. Amma istəmirlər.

Ona görə ki, təklif olunan qiymətlər ABŞ-ın Florida ştatındakı Mayami şəhərindəki, yaxud İspaniyanın İbiza adasındakı superbahalı otellərin tarifləri ilə identikdir. Bizdə elə bir düşüncə var ki, avropalı əcnəbilərin pul-parası çox olduğuna görə onlar o pulu gətirib bizə verə bilərlər.

Bu, olduqca yanlış düşüncədir. Əcnəbilər səyahət, əyləncə, istirahət həvəskarı olsalar da, qazandıqları pulun da qədrini bilir, onu səmərəli xərcləməyi bacarırlar. Üstəlik, xaricdə heç də hamı milyonçu deyil, dünyanı səyahətə çıxanların tam əksəriyyəti bəlli büdcəsi olan şəxslərdir və onlar Azərbaycan kimi ölkələrdə 500 avro yerinə 1500 avro xərcləməyi doğru hesab etmirlər.

Ölkəmizdə turizm sektorunun inkişaf etməməsinin ən böyük səbəbi tamahkarlıqdır, qısa müddətdə varlanmaq ehtirasıdır. Nə qədər ki, biz özümüzü misirli turizmçilər kimi aparır, ölkəyə gələn əcnəbiləri mütləq soymaq istəyirik, bu ölkəyə bir dəfə gələn bir də gəlməyəcək.

# Kim deyir ki, jurnalistika halvadır?

## Dünyada jurnalistlərin başına gələn ən qəribə, ən ağlasığmaz qəzalar...

**Jurnalistika çətin peşədir. Müsahibin naz-qəmzəsi, reportaja getdiyin yerlərin təhlükəliliyi, yaralanma, döyülmə, öldürülmə riski... Bir deyil, beş deyil, hansı birini sadalayasan? Ekstrim, həyəcan, gözlənilməz hadisələr də öz yerində.**

Amma bu, təkcə ölkə jurnalistlərinin başına gələnlər deyil. İndiyədək peşəsini icra etməyə çalışan qələm əhli, televiziya əməkdaşı, aparıcı, bir sözlə, jurnalistika cəbhəsində çalışan yüzlərlə insan bir-birindən fərqli olaylarla üzləşib. Məsləyinin arxasınca gedən insanlar zaman-zaman təhlükəli, bəzən qəribə, bəzən gülməli, hətta və hətta ölümlə nəticələnən hadisələr yaşayıblar. "Yeni Müsavat" onlardan bir neçəsini sizlərin nəzərinə çatdırır.

### Müsahibə götürəcəkdi, suya düşdü...

Marta Osterold adlı jurnalist Hollandiyanın Kampen şəhərində mer Bort Koelevin ilə müsahibə hazırlayan zaman təsadüfən suya düşüb. Əslində müsahibə yaxtada hazırlanmalı idi. Jurnalist merlə danışan zaman yaxtanın yanından çəkilmiş ipdən tutub. Bədbəxtlikdən ip boş olub. Mer qadının suya düşdüyünü görən kimi boynundakı asmanı çıxarıb və jurnalistə tutması üçün uzadıb. Daha sonra qadına xilasedici dairə atılıb.

Dubayda fəaliyyət göstərən "Orient News" televiziyasının müxbiri isə paytaxt Hələb şəhərində reportaj hazırlayan zaman yaralanıb. Hələbin şimalındakı Handaratda kamera qarşısında birbaşa yayım zamanı Müxbir İbrahim əl-Xətibin yaxınlığında partlayış baş verib. Hava hücumu zamanı yaranan partlayışdan sonra müxbir yıxılıb və kamera yerə düşüb. Çəkiliş qrupu İbrahimə kömək edərək onu ayağa qaldırıb və dərhal xəstəxanaya çatdırıblar.

Dünyaya səs salmış hadisələrdən biri də ABŞ-ın Virciniya ştatında baş verəndir. Canlı yayım zamanı bir jurnalist və bir fotomüxbir naməlum şəxs tərəfindən güllələnib. Hadisə jurnalistlərin "Bridgewater Plaza"da müsahibə aldıqları zaman baş verib. Öldürülən şəxslər - 24 yaşlı reportyor Alison Parker və 27 yaşlı fotoqraf Adam Vard ştatın WDBJ7 televiziyasının əməkdaşları olublar...

2012-ci il London Olimpiada Oyunları üçün Londonda olan "Sky News Arabia"nın müxbiri xəbərini təqdim etmək üçün "Olimpiada Kəndi"nin girişinə yerləşmişdi. Təqdimata başladığı canlı yayım əsnasında bir qadın həmkarının ani hərəkəti onu şoka salıb. Belə ki, gənc qadın bir müddət sonra müxbirə arxadan yaxınlaşaraq onu öpüb. "Sky News Arabia" müxbiri isə qarşılaşdığı bu hərəkətə görə şok keçirib və ancaq "Oruc pozuldu" deyə bilib.

### Canlı yayımda ölüblər - öz əcəlləri ilə...

İran telekanallarının birində aparıcı canlı yayımda ölüb. Əmək bayramı ilə bağlı yayımlanan buraxılışda verilişin aparıcısı Əhməd Kaimi qabaqcıl işçilərin adlarını səsləndirən zaman yerə yıxılıb. Əlində mikrofonu ilə yerdə uzanan aparıcını xəstəxanaya aparmaq istəyiblər. Ancaq 40 yaşlı aparıcının canlı yayımda infarkt keçirdiyi üçün vəfat etdiyi məlum olub.

Mərakeşin Fəs şəhərində isə televiziya aparıcısı idman yarışlarından canlı yayım edərkən qəflətən yerə yıxılıb. Ətrafdakılar köməyə gəlsələr də, onun həyatını xilas etmək mümkün olmayıb. Gənc aparıcı dünyasını dəyişib.

### İş zamanı zəlzələdən qorxanlar, kanalizasiya şaxtasına düşənlər

Livanın paytaxtı Beyrutda avtomobilə yerləşdirilən partlayıcının işə düşməsi bütün şəhərdə hiss olunub. Paytaxtın şimalındakı Eynul-Mireysə qəsəbəsində qeydə alınan partlayış yaxınlıqda yerləşən telestudiyada qorxu yaradıb. Canlı yayımda qonağı ilə birgə siyasi müzakirə aparan livanlı jurnalist partlayış səsindən qorxaraq verilişi dayandırmaq məcburiyyətində qalıb. Hadisə canlı yayımda baş verdiyi üçün tamaşaçılar olayı birbaşa müşahidə ediblər.

Hindistan parlamentinin "Bharatiya canata parti" partiyasını təmsil edən deputatı Punamben Madam müsahibə zamanı yerin altına yuvarlanıb. Onunla birlikdə müsahibəni alan jurnalist da yerə yuvarlanıb. İnsident Calla Ramnaqar (Qucarat ştatı) şəhərində deputat jurnalistlərin sualını cavablandırarkən baş verib. Hindistanlı deputat evləri söküləcək sakinlərin düşdüyü çətin vəziyyətdən danışdığı zaman onun ayaqları altındakı torpaq aralanıb və deputat kanalizasiya şaxtasına düşüb. Bu zaman müsahibə verdiyi jurnalistin yaxasından kömək üçün yapışan siyasətçi onun da yerə düşməsinə səbəb olub. Onların hər ikisi xəstəxanaya yerləşdirilib.

### Qonağın qabağında qəfil yerə yıxılan jurnalist

Braziliyada, radioda bəzi siyasətçilərin rüşvət aldığını açıqlayan Gleydson Karvalyo adlı jurnalist veriliş zamanı studiyaya girən iki adam tərəfindən güllələnib. Carvalhonun hadisə yerində öldüyü, cinayətkarların isə qaçdığı açıqlanıb. Jurnalist Karvalyo rüşvətlə mübarizədə ən öndə gedən şəxslərdən biri olub. Jurnalist ictimai mediada dəfələrlə ölüm təhdidi aldığını və polisə şikayət etdiyini bildirib. Cinayətdən sonra küçəyə çıxan xalq dövlətə qatillərin tapılması üçün müraciət edib. Bu hadisə canlı yayımda öldürülən insanların siyahısında ən yadda qalan haldır. Çünki bu qətlin motivi siyasidir və dördüncü hakimiyyətə qarşı törədilən ən qəddar hadisələr sırasında yer alır.









14 sentyabr 2013-cü ildə Türkiyə telekanallarından birindəki verilişdə bir xanım aparıcı iqtisadiyyatdan danışan qonağının qarşısında qəfil yerə yıxılıb. Aparıcının qəfil gözlərinin axması və kreslodan yerə düşməsi ilə qonağının hərəkətə keçməsi bir olub. Şoka girən qonaq onu yerdən qaldırmağa cəhd edərkən, canlı yayım da yarıda kəsilib, araya reklam fasilələri girib.

Bu arada canlı yayımda dünyasını dəyişən spiker, aparıcı, jurnalistlərlə bağlı xeyli faktlar var. Onlardan bir çoxunun stress nəticəsində həyatını itirməsi faktı qeydə alınıb. Youtube.com saytında buna dair saysız-hesabsız videogörüntülər var - Meksikadan tutmuş Rusiyaya, Ukraynaya, Amerikaya qədər. Oxucular internetin yardımından istifadə edərək, "aparıcı (spiker) canlı yayımda öldü" başlıqlı çoxlu sayda videomaterial tapıb, seyr edə bilər.

### Mükafat almalı idi, infarkt keçirdi

Mərakeşdə isə bir idman müsabiqəsinin ardınca təşkil edilən mükafatlandırma mərasimini canlı yayımlayan aparıcı infarkt keçirərək həyatını itirib. Edilən bütün müdaxilələrə baxmayaraq, aparıcını həyata qaytarmaq mümkün olmayıb.

Xəbərlər proqramı zamanı canlı yayıma bağlanan "Fox sports" telekanalının müxbiri Devid Medrano Morunu maşın vurub. Hadisə Meksikanın "Qbadalaxara" aeroportu yaxınlığındakı avtodayanacaqda baş verib. Hadisə nəticəsində jurnalist yüngül xəsarət alıb.

Sevinc TELMANQIZI

# Azərbaycan müxalifəti Trampdan qorxmur

## "ABŞ SSRİ deyil ki, prezident istədiyini etsin"

**ABŞ-da prezident seçkilərinin finalında Demokratlar Partiyasından namizəd olan Hillari Klintonla Respublikaçılar Partiyasından olan Donald Trampın üz-üzə qalacağı artıq heç kimdə şübhə doğurmur.**

Azərbaycan müxalifət liderləri ABŞ-da prezident seçkilərinin gedişatını izləyirmi? Anti-müsəlman mövqeli Trampın prezident seçilmək şansının artması onları narahat edirmi?

**Ümid Partiyasının sədri İqbal Ağazadə** "Yeni Müsavat"ın suallarını cavablandırarkən ABŞ xarici siyasətinin təkcə prezidentlərin əlində olmadığını bildirdi və bu baxımdan Trampın verdiyi vədləri əsassız hesab etdi: "Mən ABŞ-da keçirilən seçki prosesini izləyirəm. Təbii ki, dünyanın fövqəlgücündə baş verən dəyişikliklər bütün dünyada, o cümlədən Cənubi Qafqaz regionunda da bəzi müsbət və ya mənfi nəticələrə səbəb ola bilər. Amerikada seçki öncəsi çox vədlər verilə bilər, çox namizədlər seçici səsi almaq üçün fərqli ampluada ola bilər, fərqli mesajlar və ya şüarlar seçə bilər. Lakin ABŞ mərkəzləşdirilmiş qaydada idarə olunan dövlətdir. O, prezidentlərin arzu və istəklərinə görə idarə olunan dövlət deyil. Orada mərkəzləşdirilmiş dövlət siyasəti var və o siyasəti də prezidentlər icra edirlər. Prezidentlərin vəzifəsi mərkəzləşdirilmiş siyasəti necə icra etmələrinə verilən qiymətə görə ölçülür. Tramp indiki dönəmdə çoxlu vədlər verir, dünyanı heyrətə gətirə biləcək açıqlamalarla çıxış edir. Xüsusən İslam dünyasına qarşı aqressiv fikirlər səsləndirir. Ancaq sizi əmin edirəm ki, bugünkü şərtlərlə onun seçiləcəyi o qədər də inandırıcı görünmür. Lakin seçiləcəyi təqdirdə, hətta o özü deyəcək ki, bu seçkiöncəsi idi, daxildə ab-havanı bilirdim və ona uyğun da seçiciyə mesajlar verirdim, indi isə dövlət başçısı olaraq fərqli siyasət yürüdəcəyəm. Mən belə olacağına əminəm".

**ADP sədri Sərdar Cəlaloğlu isə "Yeni Müsavat"a açıqlamasında Trampın prezident seçildikdən sonra verdiyi vədləri həyata keçirəcəyinə inanmadığını diqqətə çatdırdı:** "Trampın prezident seçiləcəyi ehtimalı məni narahat etmir. Əvvəla, Amerika ictimaiyyəti kifayət qədər güclüdür. Orada prezident hakimiyyətini neytrallaşdıran güclü hakimiyyət orqanları var. Məsələn, Amerika Ali Məhkəməsi istənilən prezidentin verdiyi fərmanı qüvvədən sala bilər, etibarsız elan edə bilər, prezidenti məhkəməyə çağırıb ondan hesabat tələb edə bilər. İkincisi Konqres var ki, respublikaçıların tam nəzarətində deyil. Konqresdən keçməyən istənilən qərar Amerika dövləti üçün heç bir əhəmiyyətə malik deyil. Ona görə də namizədlər seçkidən əvvəl radikal fikirlər səsləndirsələr də, seçiləndən sonra məcburdurlar ki, Amerikanın mövcud siyasi rejiminin tələblərinə cavab versinlər. Əks halda, bir gün də Amerikada prezident ola bilməzlər. Ona görə də mən narahat deyiləm. Düşünürəm ki, bu, seçkiqabağı şoudur. Fərqli mövqe ortaya qoymaq, populist çıxışlar etmək bir növ avantüradır və seçicini cəlb etmək məqsədilə atılan addımdır. Lakin Tramp bu gün dediklərini heç vaxt dövlət səviyyəsində həyata keçirə bilməz. Kimin seçiləcəyinə gəlincə, onu deyə bilərəm ki, Amerika tarixində belə bir ənənə var. Bir partiya heç vaxt iki seçkidən artıq hakimiyyətdə qalmır. Obama iki dəfə Demokratlar Partiyasının təmsilçisi olub. Bu ənənələrə görə Tramp seçilə bilər. Ancaq nəzərə alsaq ki, Tramp antimüsəlman mövqeyindən çıxış edir və amerikalıların maraqlarına zidd hərəkət edir. Bu baxımdan İslama meylli amerikalılar birləşərsə, Trampın prezident seçilməsi ehtimalı çox azdır".



**KXCP sədri Mirmahmud Mirəlioğlu Trampın heç bir halda müsəlman dünyası üçün bir təhdid olmadığını bildirdi:** "Mən ardıcıl şəkildə izləməsəm də, epizodik olaraq izləyirəm. İstər Tramp seçilsin, istər başqa biri. Bizim üçün heç bir fərqi yoxdur. Amerikanın elə bir qaydaları var ki, ona rəğmən ən qatı antiislamçılar belə seçki zamanı dediklərini həyata keçirə bilmirlər. Amerika nə SSRİ, nə də Qafqaz dövlətləri deyil ki, orada prezident istədiyini edə bilsin".

❑ **Nərgiz LİFTİYEVA**

# Bir Amerika hadisəsi-"Taliban"

## Amerikanın "Taliban" ovu: niyə İŞİD-dən daha çox onu vurur?

**Suriyada müharibənin başlaması, İŞİD-in meydana çıxması bütün dünyanın nəzərlərini Yaxın Şərqə çevirsə də, Əfqanıstanda sakit savaş davam edir. ABŞ-ın pilotsuz uçan aparatları səssiz-sədasız şəkildə Əfqanıstan dağlarında "Taliban"çı "ovlayır". Son olaraq ötən həftə ABŞ pilotsuz təyyarələrinin həyata keçirdiyi hava zərbələri nəticəsində "Taliban" lideri Molla Mansur öldürüldü. Artıq "Taliban" liderinin ölümü təsdiqlənib, qruplaşma isə özünə yeni liderini seçib.**

Bu dərin düşmənçiliyin səbəbi nədir? Nədən ABŞ hələ də "Taliban"la ağır savaşı davam etdirir? İŞİD-dən daha çox "Taliban"la savaşır? Halbuki dünya üçün İŞİD-in daha təhlükəli olduğu təbliğatı aparılır. O zaman "Taliban"ı bu qədər Amerika üçün önəmli edən nədir?

"Taliban"ı Amerika üçün önəmli edən digər səbəblərə toxunmamışdan öncə bu hərəkatın ortaya çıxması, tarixi və yaradılmasına toxunmaq lazımdır. Hər şeydən öncə "Taliban" bir layihədir... ABŞ Vyetnam müharibəsində faktiki olaraq SSRİ-yə uduzdu. Sovet hərbi və kəşfiyyat strukturları Şimali Vyetnamın Amerikaya qarşı uğurlu savaşının əsas səbəbkarları idi. Amerikalılar Vyetnamın qisasını 1979-cu ildə SSRİ rəhbərliyi Əfqanıstanda sosialist hökuməti qorumaq üçün bu ölkəyə ordu göndərib "əfqan savaşına" səbəb olanda aldılar. Vyetnam savaşının əksinə olaraq bu dəfə amerikalılar cəbhəyə ordu deyil, hərbi və kəşfiyyat təlimatçıları göndərdilər.

SSRİ-nin Əfqanıstanı işğalı bütün müsəlman dünyasında qanlı işğal olaraq qəbul olundu. Tezliklə Əfqanıstanda sovetlərə qarşı cihad fətvası verildi və dünyanın müxtəlif bölgələrindən, xüsusən də Pakistan və ərəb ölkələrindən müsəlman könüllülər "kafir kommunistlərlə" savaşmaq üçün Əfqanıstana axışmağa başladılar. Çox sonralar məlum olacaqdı ki, bu proses bütövlükdə ABŞ kəşfiyyatının dəstək verdiyi böyük bir proje idi. Və bu proje çərçivəsində "Taliban" yarandı.




### "Taliban" - tələbə

"Taliban" sözü puştun dilində "tələbə" mənasındadır, daha çox Pakistan və Əfqanıstanda dini mədrəsələrdə təhsil alanlara verilən ümumi addır. Ancaq "Taliban" ın yetişdiyi mədrəsələr sıradan din təlimi mərkəzi deyil, siyasi islam fikirlərinin yayıldığı mərkəzlərdir. İlk dəfə 1866-cı ildə Hindistanda qurulan *(o zaman Hindistan və Pakistan ümumi bir müstəmləkə ərazisi idi - K.R.)* Diyobendi mədrəsəsi ingilis müstəmləkəçiliyinə qarşı mübarizə fikirlərinin yayıldığı mərkəz idi. Bu təxminən ümumi İslam aləmində yayılmağa başlayan islam oyanışı dalğasının təsiri idi. Bu cür mədrəsə və məktəblər Hindistan və Pakistan ərazilərində yayğın idi, amma bu məktəblər daha çox fikri oyanışı təbliğ edirdilər. "Taliban" isə daha fərqli situasiyada meydana çıxdı.

Sovetlərin Əfqanıstanı işğalı ilə dini mədrəsə və qruplar cihad təbliğatına kökləndilər. "Taliban" eyni zamanda, bir dini hərəkat olmaqla yanaşı puştun tayfaları arasında çıxmış, dini və etnik xarakterlərini birləşdirən yerli şərtlərin də təsir etdiyi bir düşüncə cərəyanı idi. Əfqan savaşı bu düşüncənin genişlənərək özünə güc, özü də silahlı güc qazanmasına səbəb oldu. Nəticədə savaş zamanı böyük təcrübə toplayan, çoxlu sayda tərəfdarları olan hərəkat dövrün ən müasir silahlara sahib idi. 1989-cu ildə sovetlər Əfqanıstanı tərk edərkən ölkədə ən böyük mütəşəkkil qüvvə "Taliban" silahlıları idi. "Taliban"ı güclü edən bir neçə səbəb vardı.

Birincisi, din amili. Savaş dini şüarla başladılmışdı, işğalçı ruslara qarşı cihad elan olunmuşdu. Ərəb ölkələrindən dini, mənəvi, siyasi, maddi və canlı qüvvə (yüzlərlə ərəb Əfqanıstanda sovetlərə qarşı savaşırdı - K.R.) dəstəyi alan "Taliban" hərəkatı sovetlərə qarşı savaşan ən böyük güc idi. Savaş müqəddəs savaş elan olunduğu üçün dini hərəkat olan "Taliban"ın üzə çıxması təbii idi.

İkinci mühüm amil etnik amil idi. Puştun tayfaları Əfqanıstan və Pakistanda böyük saya malikdirlər. Məhz say çoxluğu və nüfuzlu tayfa olması faktı puştunlar arasından çıxan "Taliban"ın gücünü nümayiş etdirirdi.

Sovetlər Əfqanıstanı tərk edəndə ölkədə artıq bir neçə güclü silahlı birləşmələr vardı. Ölkədə ruslardan sonra başlayan daxili savaş 1996-cı ildə "Taliban"ın digər rəqiblərini məğlub edərək Kabili ələ keçirməsi ilə nəticələndi, ancaq savaş bitmədi. "Taliban" Əfqanıstanın 85 faizini ələ keçirərək "Əfqanıstan İslam Əmirliyi" elan etdi.

Ümumi olaraq Hənəfi məzhəbinə mənsub olmasına və sufi təriqətləri təsiri olmasına baxmayaraq "Taliban" təkfirçi idi. Digər dini inanclara qarşı, o cümlədən şiə tayfalarına qarşı qırğınlara səbəb oldu. Çoxlu sayda Xəzər tayfaları üzvləri günahsız olaraq öldürüldü. Ancaq "Taliban" eyni zamanda sünni müsəlmanlara qarşı da mülayim deyildi. "Taliban"ın hakimiyyəti altında olan ərazilərdə televizor, video, səsyazma qadağan idi. Məktəblər qapadıldı, qız uşaqlarının təhsil alması qadağan edildi. Qadınların məhrəm (yaxın qohumu) olmadan küçəyə çıxması yasaqlandı, evdən çıxan qadınlar yerli əfqan çadrası - başdan ayağa qədər örtən, yalnız gözləri görünən geyim - geyməli idilər.

Eyni zamanda kişilərin saqqal saxlaması, saçlarının alına qədər uzadılmaması qadağası qoyulmuşdu. Əmmamə bütün uşaqlara və dövlət məmurlarına məcburi olub. Uşaqların göyərçin saxlaması, uçurtması, çərpələng uçurtması, şahmat oynaması qadağan olundu. Eyni zamanda, kağızdan çanta və tualet kağızı da daha əvvəl Quran səhifələrinin təkrar emalından ola biləcəyi şübhəsi ilə, yasaqlandı. Üzərində və ya qutusunda insan, yaxud heyvan rəsmi olan əşyaların satışı və sərgisi qadağan edildi.

### Amerikanın əzəli düşməni

Ancaq təbii ki, "Taliban" bu yasaqlar və qəddar qanunlar səbəbi ilə Qərbin qəzəbinə gəlmədi. Hətta hakimiyyətdə olduğu dövrdə Pakistan, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri kimi dövlətlər "Taliban" Əfqanıstan hökumətini rəsmən tanıyıb və diplomatik əlaqələr qurub. Eyni zamanda, bu ölkələr Əfqanıstan "Taliban" hökumətinə yardım ediblər.

Ancaq 2001-ci il 11 sentyabr hadisələrindən sonra məlum oldu ki, Əfqanıstan müharibəsi zamanı sovetlərə qarşı "Taliban"la bir yerdə savaşmış "əl-Qaidə" Əfqanıstanda yerləşib və Vaşinqtonun tələblərinə baxmayaraq, "Taliban" liderləri "əl-Qaidə"ni, onun lideri bin Ladeni Amerikaya təslim etmədilər. Nəticədə 2001-ci il oktyabrda hava zərbələri ilə başlayan Amerika hücumları qısa müddətdə Əfqanıstanın paytaxtı Kabilin alınması ilə nəticələndi. "Taliban" isə dağlara çəkildi. Bir müddət səssiz qalsa da, 2004-cü ildən başlayaraq "Taliban"ın Əfqanıstanda hücumları artmağa başladı. 2009-cu ildə isə yerli hökumət və ardınca isə amerikalılar Əfqanıstanda sülhün əldə olunması üçün "Taliban"la danışıqlara etməyin vacibliyindən danışmağa başladılar.

Ancaq bununla belə, ötən müddətdə savaş dayanmadı. Amerika əsas silahlı birləşmələrini Əfqanıstandan çıxarsa da, hərbi təlimatçılar hələ də əfqan hərbçilər və polislərə təlim keçir, onları "Taliban"a qarşı savaşa hazırlayır. Ancaq ABŞ-ın hazırda "Taliban"a qarşı ən təsirli silahı pilotsuz uçan aparatlardır. "Predator" tipli raket daşıma qabiliyyətinə malik uçan aparatlar ABŞ-dakı mərkəzlərdən idarə olunur və Əfqanıstan dağlarında "Taliban" silahlıları ovlayır. Amma bu zaman həm də yüzlərlə dinc əfqan da qurbana çevrilir.

Amerikanlar yaxşı anlayır ki, Əfqanıstandan tamamilə çəkilib getsələr bir neçə ildən sonra ölkə yenidən "Taliban"ın əlinə keçəcək. Bu isə yenidən ağır və üzücü müharibə və dəhşətli hadisələr deməkdir. Bu səbəbdən də ABŞ generalları "Taliban"ı zərbə altında saxlamaqda davam edirlər, birmənalı olaraq məhv etmək mümkün olmasa da...

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 118 (6439) 1 iyun 2016

# “Bölgələrdə rəssamların durumu daha acınacaqlıdır”

## Şəkili rəssam Səbuhi Məmmədov: “Rəssamın səyi yalnız ortaya gözəl rəsm əsəri qoymaqdan ibarət deyil, həm də bir tikə çörək pulu qazanmaqdır”

**Rəssamlıq müxtəlif duyğuların rənglərlə ifadəsi sənətidir. Təəssüflər olsun ki, indi bir çox rəssamların öz rəngli dünyalarını nümayiş etdirməyə imkanı, şəraiti yoxdur. Dünyanın hər yerində olduğu kimi bir neçə il əvvəl Bakı küçələrində də rəssamlara rast gəlinirdi. Onlar balaca bir köşkdə sənətləri ilə məşğul olur, həm də pul qazanırdılar.**

Ancaq indi rəssamların küçələrdə fəaliyyətinə icazə verilmədiyi üçün imkanı olanlar özünə kiçik bir emalatxana açıb fəaliyyət göstərir. Buna imkanı olmayanlar isə evində fəaliyyət göstərir. Bəzən isə ağır şərait və şərtlər onları rəngli dünyadan ayırır və bir tikə çörək pulu qazanmaq üçün başqa sahələrə sürükləyir. Bölgələrdəki rəssamların vəziyyəti daha da acınacaqlıdır. Onlar əsərlərini satışa çıxara bilmir. Şəkidə də rəssamlıq sahəsi demək olar ki, unudulmuş bir sahədir. Bu rayonda fəaliyyət göstərən rəsm qalereyası artıq turistlərin də diqqətini çəkmir. Bir çox rəssamlar isə öz rəsm əsərlərini buradan götürüb. Şəki rəssamları sənətləri ilə artıq küçədə, rəsm qalereyasının həyətində, bəzən isə xarici ölkələrdə məşğul olurlar. Bu cür **rəssamlardan biri də Şəkidə rast gəldiyimiz Səbuhi Məmmədovdur.** S. Məmmədova küçədə portret çəkərkən rast gəldik. Çox həvəslə çalışan rəssama yaxınlaşıb, problemləri və bu işin incəlikləri ilə maraqlandıq. Rəssam bu sənətin gözəl olduğunu deməklə yanaşı, bildirdi ki, hazırda bir rəssamın səyi yalnız ortaya gözəl rəsm əsəri qoymaqdan ibarət deyil, həm də bir tikə çörək pulu qazanmaqdır. Məhz buna görə də rəssamlar çox zaman alıcıların şıltaqlıqlarına tabe olmaq məcburiyyətində qalırlar: “Rəssamlıqla çoxdan məşğulam. Daha çox Rusiyada işləyirəm. Orada insanların portretini çəkirəm. Orada yaxşı rəssamlar çoxdur. Onların içində seçilmək çətindir. İstər-istəməz çalışırsan ki, daha yaxşı olub, onlarla ayaqlaşasan. Oradakı camaat da daha tələbkardır. Orada küçədə rəsm çəkmək daha maraqlıdır, nəinki Azərbaycanda. Orada hətta balaca 7-8 aylıq uşaqları belə gətirib rəsmini çəkdirirlər. Rusiyada festivallar da çox olur, mən də iştirak edirəm. Bu







sənəti sevirəm, mənim üçün çətin deyil. Sadəcə, ölkəmizdə bu sənətə verilən qiymət, yaradılan şərait adamın qəlbini qırır, sənətindən uzaqlaşdırır. Azərbaycanda idman, muğam kimi bir çox sahələrə diqqət ayırsalar da, rəssamlıq sahəsinə biganə yanaşırlar. Xüsusən də bölgələrdə olan rəssamlara şərait yaradılmır. Biz ancaq dərs deməklə özümüzü dolandırırıq. Halbuki Rusiyada rəssamlara böyük dəyər verirlər. Oradakı rəssamlar maddi sıxıntı yaşamırlar. Bölgələrdə rəssamlıq ölü vəziyyətindədir. Şəkidəki rəsm qalereyasına baxanda rəssamlığın səviyyəsinin hansı dərəcədə olduğunu görürsən. Şəxsən mən qalereyaya qoyduğum işlərin hamısını yığışdırıb evə, öz emalatxanama aparmışam. Mən yaradıcı rəssamam. Portretlə yay tətillərində məşğul oluram. Portret çəkdirmək istəyənlərin çoxu deyir ki, bax, şəkildən çək. Amma canlı baxıb çəkməyə daha çox üstünlük verirəm. Bəzən elə olur ki, bir əsəri aylarla işləyirsən, amma qurtara bilmirsən. Amma elə olur ki, bir əsəri bitirmək üçün sənə saniyələr bəs edir. Bir əsəri aylardır ki, qurtara bilmirdim. Bir gün gecə bir an ağlıma gəldi ki, mən o əsərə necə nöqtə qoya bilərəm. Heç rəsm fırçasını götürmədim ki, beynimdəki o anı itirəcəm. Barmaqlarımı rəngə batırıb əlimlə çəkdim”.

**S.Məmmədov tələbələri olduğunu bildirdi:** “İstəmirəm onlar da mənim kimi bölgədə qalıb məhv olsunlar. İstedadlı tələbələrim var. Onlarla fəxr edirəm, istəyirəm qabağa getsinlər, böyük şəhərlərdə olsunlar. Bizim kimi ilişib qalmasınlar. 15-20 il bundan əvvəl bir amerikalı çəkdiyim iki əsəri almışdı. Mənə dedilər ki, şəklini alan amerikalı səninlə tanış olmaq istəyir. Bir restoranda oturub yemək yedik. Mənə dedi ki, bütün dünyanı gəzmişəm, amma sənin kimi maraqlı rəsmlər çəkən görməmişəm, işlərin maraqlı gəlir. Mənə sual verdi ki, səni Şəki şəhərində necə tanıyırlar. Dedim, yaxın ətraf bilir ki, rəssamam. Amma ümumi hamı məni Səbuhi müəllim kimi tanıyır. O, cavabımdan təəccübləndi və dedi ki, səni rəssam kimi tanımalıdırlar, müəllim kimi yox”...

**Bəzən portret çəkdirmək istəyənlərin kaprizlərinə dözmək məcburiyyətində qaldığını deyən rəssam çəkdiyi əsərləri satarkən Şəki əhalisinin büdcəsini nəzərə aldığını deyir:** “Bir portreti 15-20 dəqiqəyə hazırlayıram. Rəngli portreti isə 30 dəqiqəyə çəkirəm. Ancaq əsərin tez bitməsi portretini çəkdiyim insandan asılıdır. Elə adam olur ki, mimikaları çox çətin olur, uyğunsuzluqlar olur. Ona görə də bu cür insanların portretini çəkmək yarım saatdan çox vaxt aparır. Həm də gün ərzində bir neçə nəfərin portretini çəkəndə rəssam cizgiləri qarışdıra bilir. Ona görə ola bilər ki, vaxt çox getsin”.

**Söhbətimizin bu yerində rəssamın yanına tələbələri və şəkil çəkdirmək istəyən bir müştəri gəldi. Rəssamın “ilham pərisini” qaçırmamaq üçün sağollaşıb ayrıldıq...**

❑ **Günel MANAFLI**



## 14 yaşlı oğlanı oğurlayıb, 20 min manat istəyən şəxs yaxalandı

**Azərbaycanda 14 yaşlı uşaq oğurlanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidməti bildirir ki, mayın 30-da naməlum şəxs Binəqədi rayonu M.Ə.Rəsulzadə qəsəbəsində kirayədə yaşayan Kürdəmir rayon sakini - 14 yaşlı Cəfər Qasımovu oğurlayıb, qaytarılması müqabilində anası Afətdən 20000 manat istəyib və polisə məlumat verməməsini tələb edib.**

Keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə C.Qasımovun “VAZ-21154" markalı avtomobildə qaçırılması müəyyən edilib və qeyd edilən nəqliyyat vasitəsi Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi, Dövlət Yol Polisi İdarəsi və Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən Azadlıq prospektində saxlanılıb. Sürücü - Bakı şəhər sakini, 23 yaşlı Sənan Qasımzadə törətdiyi əməli etiraf edib.

C.Qasımov ailə üzvlərinə təhvil verilib.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 144-cü (adam oğurluğu) maddəsi ilə cinayət işi başlanıb, araşdırma aparılır.

## ELAN

**Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsi, Dəniz küçəsi, 1-ci dalan, 3 saylı ev üçün Mehdiyev İlyas Almaz oğlunun adına verilmiş qeydiyyat vəsiqəsi (“kupça”) itdiyi üçün etibarsız sayılır.**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**

**Tel (051) 634-40-01**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 118 (6439) 1 iyun 2016

# Novxanıda hotellərin bir günlük qiyməti 80, Milanda isə 60 manatdır

## Ekspert: "Hər hansı potensial bir turist oturub kompüterində bu qiymətlərə baxsa, Novxanıya gələrmi?"

**"Azərbaycana bu yay turist axını ola bilər". Bu sözləri mədəniyyət və turizm naziri Əbülfəs Qarayev "Yeni Müsavat"a açıqlamasında səsləndirib. Nazir qeyd edib ki, Azərbaycan bu yay çoxlu sayda turist qəbul etməyi planlaşdırır və bunun üçün lazım olan tədbirlər görülüb. Ə. Qarayevin fikrincə, turistlərin əksəriyyəti Rusiya vətəndaşları olacaq: "Biz məhz buna görə Rusiyada təmsilçilik açırıq, sərgilərdə iştirak edirik. Qiymətlər də onları qane edir. İndi bəzi ölkələr rusiyalı turistlərin üzünə bağlı olduğuna görə onlar yeni məkanlar axtarırlar. Azərbaycan da onlar üçün əvəzolunmaz məkandır. Orada alternativ axtarılırsa, Azərbaycan öz xidmətlərini təqdim etməyə hazırdır. Biz də bunu etmişik".**






Bəs görəsən, həqiqətənmi bu il ölkəyə gələn turist sayı ötən illərlə müqayisədə daha çox olacaq? Azərbaycanda qiymət və xidmət səviyyəsi bunu deməyə əsas verirmi? Hazırkı turizm potensialımız turist axınını qarşılamağa imkan verirmi?

**"Yeni Müsavat"ın suallarını cavablandıran turizm sahəsi üzrə ekspert isə hesab edir ki, ruslar Türkiyəyə yalnız Rusiyadan yox, başqa ölkələrdən, məsələn, Belarusdan gedəcəklər:** "Azərbaycanın mədəniyyət naziri bu il turist sayının çox olacağını deyirsə, yəqin ki, hansısa məlumatlara əsaslanır. Ancaq mən düşünmürəm ki, belə axın olsun. Niyə? Çünki rəqabətə davamlılıq baxımından biz hələ ki öndə deyilik. Qonşu Rusiya, Şimali Qafqaz, yaxud Gürcüstanda qiymətlər bizimlə müqayisədə daha ucuzdur. Mən düşünmürəm ki, buraya ötən ilkindən fərqli böyük bir axın olsun. Əgər olsa, çox sevinərəm, nazir haqlı çıxar, mən səhv etmiş olaram. Təbii ki, turistlər gələcəklər, ancaq bu axın olmayacaq. Mən bu haqda danışmağa çətinlik çəkirəm. Bəlkə nazirin konkret faktları var ki, hansısa amillər yaranıb. Ancaq bunun üçün bir neçə şərt var. Çox yaxşı reklam olmalıdır. Biz hələ indi turizmlə bağlı reklamlara başlayırıq. Lakin bunu yanvar ayından etmək lazım idi. İkincisi, qiymətlər münasib olmalıdır. Siz booking.com saytına baxın, Novxanıda hotellərin bir günlük qiyməti 80 manata, Milanda 60 manata, Londonda isə 55 manatadır. Hər hansı potensial bir turist oturub kompüterində bu qiymətlərə baxsa, Novxanıya gələrmi? Əlbəttə, yox".

**Ekspertin fikrincə, turizm sektorunun inkişafı üçün rəqabətə davamlılıq, qiymətlərin münasib olması, xidmətlərin cəlbedici olması vacib şərtdir:** "Turist təsadüfən bir dəfə gələr, ancaq gəlib burada servisi, qiymətləri görəndən sonra qonşu Gürcüstanla müqayisə edər, sonra qərar verər ki, gələn il Gürcüstana getsin. Rəqabətə davamlılıq önəmlidir. Novxanıda bir gecəsi 80 manata olan hoteldə bəlkə də imkanlı adamlar qalacaq, ancaq əhalinin böyük əksəriyyəti o imkanlarından istifadə etmək imkanına malik deyil. Ona görə də sadə insanlar Gürcüstana üstünlük verəcək, çünki qiymətlər aşağıdır. Məndə olan məlumatlara görə indi orada da qiymətlər qalxıb, ancaq yenə də bizə baxanda onlarda aşağıdır. İstənilən turist və ya yerli vətəndaş ilk növbədə qiymətlərə baxır. Turizm iqtisadi rəqabətdir. Əgər sən bu üstünlükləri verirsənsə, səni seçəcəklər. Çox güman ki, nazir daha məlumatlıdır və hesab edir ki, belə bir şərait var. Yaşayıb görərik. Sentyabr ayında bir təhlil edərsiniz, görək bu deyilənlər nə dərəcədə həqiqətə uyğundur. Hələ ki bizim qiymətlər rəqabətə davamlı deyil, servisdə də üstünlüyümüz yoxdur. Hansı əsasla biz gözləməliyik ki, Rusiyadan buraya axın olacaq. Rusiya Gürcüstanı seçəcək, Abxaziyanı seçəcək. Dəniz, kənarı orada da var, dənizləri bizimkindən də təmizdir. Turizm çoxfaktorlu sahədir. Buna geniş mənada yanaşmaq lazımdır. Biz də arzu edirik ki, axın olsun, ancaq reallığa baxmalıyıq".

**İqtisadçı ekspert Rəşad Həsənov isə bildirdi ki, bu il turist axınının ötən illərlə müqayisədə daha çox olacağı gözlənilir:** "Manatın məzənnəsinin düşməsindən sonra Azərbaycanda turizm sektorunun qiymət rəqabətliliyinin güclənməsi səbəbindən turistlərin sayı arta bilər. Rusiyalı turistlərin Türkiyəyə gedə bilməməsi səbəbindən Azərbaycana üz tutanların sayında artım olacağı gözlənilir. Rusiyanın turizm şirkətlərinin açıqlamalarında da qeyd olunur ki, ötən illə müqayisədə bu il Azərbaycana satılan turpaketlərin sayında 90 faiz artım müşahidə olunub. Bu da onu göstərir ki, həqiqətən Rusiyadan Azərbaycana turist axını çox olacaq. Düzdür, turizm sektoru inkişaf edir, ancaq tam olaraq rəqabətə cavab verəcək səviyyədə deyil. Turizm sənayesi zəif inkişaf edib, xidmət səviyyəsi müasir tələblərə cavab vermir. Bölgələrdə turizm sektoru həm Türkiyəyə, həm də Rusiyaya görə zəif inkişaf edib. Bu istiqamətdə işlərin sürətləndirilməsinə ehtiyac var".

**Rəşad Həsənovun sözlərinə görə, əvvəllər turizm sektoru dövlət sifarişlərinə arxayın olduğu üçün istirahət mərkəzləri arasında rəqabət formalaşmayıb:** "Azərbaycanda əvvəllər turizm sektoru dövlət tərəfindən yönəldilən turistlərə köklənirdi. Xüsusilə hotellər öz xidmətlərini dövlət sifarişləri üzərində qururdular. Bu baxımdan qiymətlər həddindən artıq çox idi, keyfiyyətə o qədər də diqqət yetirilmirdi. Amma hazırda dövlət xərclərinin ixtisar edilməsi nəticəsində bu sifarişlərin azalması bu sahədə müəyyən sıxıntılara səbəb olub. Artıq hiss olunur ki, turizm sektorunda rəqabət formalaşmağa başlayır. Bununla bağlı yeni təkliflər, yeni mexanizmlərin hazırlanmasına, təşviq proqramlarının həyata keçirilməsinə ehtiyac var. Azərbaycan turizmi öz işini bazar prinsipləri üzərində quran bir sektora çevrilməlidir. Hazırda turistlərin daşınması ilə bağlı problem var. AZAL müəyyən ucuz reyslərin təşkil olunması ilə bağlı işlər görür. Ancaq bu uçuşların təşkili elə qurulub ki, daha çox Azərbaycandan xaricə turist aparmağa xidmət edir, nəinki Azərbaycana turist gətirməyə. Bu istiqamətdə strategiyaya yenidən baxmağa ehtiyac var. Başqa bir məqam da odur ki, bu il Azərbaycana turist axını olsa, sürətlə qiymət bahalaşmasına səbəb olacaq. Bu isə növbəti illərdə həmin turistlərin yenidən Azərbaycan gəlməsinə əngəl törədən amillərdən birinə çevriləcək".

❑ Nərgiz LİFTİYEVA

# Bakı bulvarında yalnız bileti olanlar gəzə biləcək

**İyunun 15-dən Dənizkənarı Milli Park "Formula-1" şəhərciyi kimi yalnız yarış tamaşaçıları üçün açıq olacaq. Tamaşaçılar bilet təqdim etməklə əraziyə keçə biləcəklər. Buna görə də bulvar tamamilə görkəmini dəyişəcək. Hazırda bulvarın ətrafına dəmir hasar hörülür, giriş-çıxış beton sədlərlə məhdudlaşdırılır.**



Virtualaz.org-un məlumatına görə, bulvar istirahət zonası kimi fəaliyyət göstərəcək. Ərazidə təmir işləri aparan fəhlələrin sözlərinə görə, 3 böyük səhnə quraşdırılacaq. Buna görə də fontanlar kəsilib, hovuzların içərisinə əvvəlcə beton doldurulur, sonra isə üzəri taxta ilə örtüləcək. Dünya şöhrətli müğənnilər bu səhnədə çıxış edəcəklər.

Kiçik yaşlı uşaqlar üçün olan attraksionlar Kukla Teatrının yaxınlığına köçürülüb. Amma bir neçə attraksion və kafelərin söküntüsünə başlanacaq. "Xüsusi istirahət zonası kimi kafelər, restoranlar açılacaq. Bundan əlavə, "Formula-1" oyunları, motor yarışları təşkil ediləcək", - deyə fəhlələrdən biri məlumat verir.

Bulvardakı yeniliklərdən biri də şou-proqramlar olacaq. Güzgü və ya robot-şou kimi proqramlar əsasən azyaşlı tamaşaçılar üçün nəzərdə tutulub.

Həmin günlərdə "Park bulvar" fəaliyyətini davam etdirəcək. Amma buna baxmayaraq, bulvarda əlavə satış mərkəzləri də fəaliyyətə başlayacaq. "Park bulvar"a giriş-çıxışa məhdudiyyətlər qoyulmayacaq. Buna görə də bulvara girmədən ticarət mərkəzinə keçid üçün xüsusi körpü tikiləcək. Bulvarın ətrafındakı avtomobil dayanacaqları da söküləcək.

Bulvarda hazırlıq işlərinə başlanılsa da, kafe və attraksionlarda çalışanlara heç bir məlumat verilməyib. **"Avropa Oyunlarında da belə olmuşdu. 1 gün əvvəldən dedilər ki, sabah işə gəlməyəcəksiniz".**

Bunu isə kafedə çalışan Azər Məmmədov deyir. Onun sözlərinə görə, kafelərin söküləcəyi deyilsə də, əlavə açıqlama verilməyib: **"Deyirlər ki, bulvar yalnız 4-5 gün bağlı qalacaq. Amma bu tikilənləri sökmək lazımdır. Buna görə də ən azı 10 gün işləyə bilməyəcəyik".**

"Baku Grand Prix" şirkətinin milli mətbuat katibi, Marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai isə virtualaz.org saytına açıqlamasında deyib ki, Dənizkənarı Park ərazisi iyunun 15-i gecə saat 01:00-dan etibarən bağlı olacaq. Burada əhalinin girişinə qoyulan məhdudiyyət iyunun 20-si günorta saat 12:00-da aradan qaldırılacaq. Yarışa bileti olan azarkeşlər Dənizkənarı Park ərazisinə iyunun 16-sı günorta saat 12:00-dan etibarən daxil ola biləcəklər".

"Formula-1" yarışlarını izləmək üçün biletlərin qiyməti 125 manatdan 620 manatadəkdir.